**AZƏRBAYCAN RESPUBLİKA ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

**Fakultə:** Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil

**Departament:** Təhsil

**İxtisas:** Pedaqogika nəzəriyyəsi və tarixi

# MAGİSTR TEZİSİ

**Mövzu:** Məktəblərdə bullinq və kiberbullinq haqqında təsəvvürlər və onlarla mübarizə üsulları

**Magistrant:** Məsməxanım İskəndərli

**Elmi rəhbər:** Dr. Qoşqar Məhərrəmov

**Bakı-2023**

## XÜLASƏ

Bu tədqiqatın məqsədi şagirdlər arasında yayılmış bullinq və kiberbullinq haqqında təsəvvürlərinin öyrənilməsi və onlarla mübarizə tədbirlərinin araşdırılmasıdır. Əlavə olaraq tədqiqatın digər alt məqsədi Azərbaycanda bullinq və kiberbullinqlə bağlı durumun öyrənilməsi və uyğun tədbirlərin görülməsinə mayak olmaqdır. Tədqiqatda keyfiyyət metodunun fenomenologiya modelindən istifadə olunmuşdur. Araşdırmada məlumatlar məlumatın dərin və tam əldə edilməsi məqsədilə yarı-strukturlaşdırılmış müsahibə forması ilə əldə edilmişdir. Tədqiqat prosesində əsasən müəllimlərin və şagirdlərin fikirlərinə müraciət edilmişdir. Müsahibə iştirakçıları qartopu modeli ilə seçilmiş və əldə edilən datalar məzmun analizinə tabe tutulmuşdur. Müsahibə həm müəllimlərlə, həm də şagirdlərlə üz-üzə olaraq aparılmışdır. Tədqiqatın nəticəsində bullinqin digər ölkələrin məktəblərində olduğu kimi Azərbaycan məktəbliləri arasında geniş yayıldığı görülmüşdür. İKT-nin daha geniş yayılması şagirdlərin kiberbullinqə məruz qalma faizini də artırmaqda və yeni tədbirləri labüd hala gətirməkdədir.



***Açar sözlər:*** *bullinq, kiberbullinq, məktəb, şagirdlər, bullinqlə mübarizə, müəllimlər*



## ABSTRACT

The purpose of this study is to study the perceptions of bullying and cyberbullying prevalent among students and to investigate measures to combat them. In addition, another sub-goal of the study is to study the situation related to bullying and cyberbullying in Azerbaijan and to be a beacon for taking appropriate measures. The phenomenology model of the qualitative method was used in the research. The data in the research was obtained through a semi-structured interview form in order to obtain deep and complete information. In the research process, teachers' and students' opinions were mainly addressed. The interview participants were selected using the snowball model and the obtained data were subjected to content analysis. Interviews were conducted face to face with both teachers and students. As a result of the research, it was seen that bullying is widespread among Azerbaijani schoolchildren, as it is in schools of other countries. The wider spread of ICT also increases the percentage of students exposed to cyberbullying and necessitates new measures.



***Key words:*** *bullying, cyberbullying, school, students, coping methods, teachers*

**Mündəricat**

**Giriş………………………………………………………………………………..5**

**I FƏSİL : Ədəbiyyat icmalı**

**1. Tədqiqatın nəzəri əsasları……………………………………………………..15**

**1.1 Bullinq haqqında əsas anlayışlar və xarakterik xüsusiyyətlər……………………15**

1.1.1 Bullinq anlayışı………………………………………………...………………15

1.1.2 Bullinq edənin xarakterik xüsusiyyətləri……...……………………….……………17

1.1.3 Bullinq qurbanın xarakterik xüsusiyyətləri……...…………………………………...18

**1.2 Bullinqin təsirləri………………………………...………………………………...19**

1.2.1 Bullinq edənlər üçün təsirlər……………………......……………………………..19

1.2.2 Bullinq qurbanı üçün təsirlər……………………..........………………………..20

**1.3 Bullinqin kateqoriyaları…………………………………………..…….…………….20**

1.3.1 Birbaşa bullinq……………………………………….....……………………20

1.3.2 Dolayı bullinq……………………………………………..……………………..20

1.3.3 Cinsi Bullinq…………………………………………..………………………21

**1.4 Məktəbdə mobbinq…………..………………………...……….…………22**

1.4.1 Megaloman mobbinqçilər………….……………………..…………………….. 22

**1.5 Bullinqlə əlaqəli nəzəriyyələr……………………………………………….……23**

1.5.1 Atribut nəzəriyyəsi……………………………………………...…………….…23

1.5.2 Dominantlıq nəzəriyyəsi………………………………………………………....24

1.5.3 Ekologiya nəzəriyyəsi…………………………………...……………….…25

1.5.4 Sosial sərmaye nəzəriyyəsi…………………………………………………….....25

**1.6 Kiberbullinq anlayışı……………………………………………………….….26**

1.6.1 Kiberbullinqin növləri……………………………………………………....28

1.6.2 Kiberbullinq qurbanı olan uşaq……………………………………………….….28

1.6.3 Kiberbullinq edən uşaqdakı əlamətlər ……………………………….………….…29

1.6.4 Kiberbullinqin səbəbləri……………………………………………………...…..29

**1.7 Bullinqlə mübarizə……………………………………………………….…….30**

1.7.1 Olweus metodu……………………………..……………………………....30

1.7.2 Biblioterapiya üsulu………………………………………………………...31

1.7.3 İdentifikasiya………………………………………………………….....…..31

1.7.4 Katarsis………………………………………………………….……….….31

1.7.5 Sezgi……………………………………………………………………..….31

1.7.6 Rollu oyunlar…………………………………………………….……....32

1.7.7 Kiberbullinqlə mübarizə…………………………………………………….…32

**1.8 Bullinqin və kiberbullinqən Azərbaycandakı vəziyyəti……………………... ..…33**

**1.9 Gender və yaşın bullinq və kiberbullinqlə əlaqəsi……………………......…..….33**

**II FƏSİL**

**2. Metodologiya…………………………………………………………….…...….36**

2.1 Tədqiqat modeli……………………………….…………………….……..36

2.2 İştirakçılar………………………….…………………………….….…....36

2.3 Data toplama aləti……………………………………………….….….…36

2.4 Dataların toplanması………………………….………………….…..….…38

2.5 Müsahibə…………………………….………………………..…..….…38

2.6 Dataların analizi…………………………………………………..…...……38

2.7 Etik mülahizə…………………………..………………….…...….…...39

2.8 Tədqiqatın məhdudiyyətləri………………….…………………...….….…39

**III FƏSİL**

**3. Toplanmış məlumatların təhlili ……………………………….…………..….…..40**

3.1 Şagirdlərdən və müəllimlərdən toplanılmış məlumatlardan əldə olunan tapıntılar…....40

3.2 Temalar………………………………………………………………..……....40

3.3 Kateqoriya və kodlar………………………………………………..…….….....40

NƏTICƏ.........................................................................................................................57

TÖVSIYYƏLƏR..............................................................................................................58

ƏDƏBIYYAT SIYAHISI.................................................................................................60

**Cədvəllər**

1.1 Cədvəl 1…………………………………………..…………………………………19

1.2 Cədvəl 2……………………………………………..………………………………26

1.3 Cədvəl 3…………………………………………………..…………………………31

1.4 Cədvəl 4………………………………………………………..……………………47

1.5 Cədvəl 5…………………………………………………………….………………47

## Giriş

### Tədqiqatın aktuallığı

Zorbalıq hallarıyla bağlı tədqiqatların aktuallı yüksək səviyyədədir, çünki bu davranış bütün dünyada yeniyetmələr arasımda geniş yayılmışdır (Zych et al., 2017). Bullinq həryerdədir və bu milliyət, cins, mühit, sosial-iqtisadi vəziyyətlə məhdudlaşmır (Craig et al., 1997).Sosial münasibətlərdəki problemlərdən dolayı bullinq yeniyetmələrin bu dövründə qarşılaşdığı ən vacib hal vəziyyətini alır (Brown və Larson, 2009). Bütün dünyada bulinq əsasən məktəb vaxtında pik həddə çatır. ( Schultz, 2012). Bullinq davranışlarında bullinq edənə insana zorba, bullinqə uğrayan insana isə bullinq qurbanı deyilir (Olweus,1993). Bir çox ölkələrdə məktəbin, hökümətdə siyasət quranların və pedaqoqların əsas məqsədi şagirdləri gələcəkdə yetərli və güclü şəxsiyyət kimi yetişdirməkdir. Məktəbdə baş verən şiddət və həmyaşıdlar arasındakı bullinq bir çox məktəblərdə təhsil prosesinə mane olan ciddi bir problemə çevrilmişdir. On il əvvələ qədər bullinqin növləri fiziki, şifahi olaraq təyin edilirdisə artıq texnologiya dövründə yeniyetmələrin bir-birini təhqir etmə forması da dəyişilmişdir. Yeni ortaya çıxmış bu bullinq növü kiberbullinq adlanır və bullinq qurbanlarına qarşı təkrarlanan qəsdən aqressiv hərəkətlərlə özünü göstərir. (Smith et al., 2008, p. 376). XXI əsrin əvvəlləri informasiya ve kommunikasiya texnologiyaları həyatımızın əsas qəhramanına çevrildi və bu hal da yetiyetmələrin həyatını ciddi mənada dəyişdi, kompüter və mobil telefonlardan istifadə geniş vüsət aldı. Fərdlərin akademik həyatı ( Yıldız, 2002), sosial əlaqələri , və hətta romantik münasibətləri (Stonard, 2014), belə onlayn dünyaya transfer olundu. Onlayn platformadakı qurulan münasibətlər yeniyetmələrə üstünlük verdiyi kimi neqativ cəhətdən də onları kiberbullinqlə əlaqələndirdi. Aparılmış tədqiqatlar göstərir ki, insanların onlayn aləmdəki davranışları real dünyadakı davranışlarından ciddi şəkildə fərqlənə bilər (Herring, 2004). Məktəblərdə aparılan tədqiqatlar bir daha sübut edir ki, bullinq qurbanlarda açıq aydın izlər buraxır və psixoloji zərər verir. We are Social və Hootsuite-un açıqlamasına görə 2021-ci ildə dünyada 53.6% aktiv sosial media istifadəçisi və təxmini olaraq 60% internet istifadəçisi var. Bunların 66.6% -i isə mobil telefon istifadəçisidir. Bullinq təcavüz halının bir alt kateqoriyası olaraq ondan fərqlənir, çünki bu baş verən hal hərhansı bir təhriketmə söz mövzusu olmadan baş verir (Pekel, 2004) və bullinq edənlə bullinq uşaq arasında güc baxımından tarazsızlıq olduğundan təcavüzdən fərqlənir (Camodeca ve Goossens, 2005). Onlayn platformalar yeniyetmelərə anonimliyi qoruyaraq digərlərini bullinq etməyə şərait yaradır. Bullinq edənlə bullinq edilən arasındakı bu tarazsızlıq vəziyyəti bu tipli aqressiv hərəkətlərin təkrarlanmasının əsas göstəricisidir (Ybarra, Espelage, ve Mitchell, 2007). Bullinq qurbanlarının həftədə ən azı bir dəfə bu tipli davranışla qarşılaşması bullinq olaraq kateqoriyalaşdırılır (Parren ve Alsaker, 2006). Bullinq baxımından zorbalıq edən və qurban arasındakı əsas vacib məqamlardan biri də onların özlərindən böyüklərdən

daha çox həmyaşıdları tərəfindən bu duruma uğramasıdır (Olweus, 1993). 2000-ci illərin əvvəllərində tədqiqatçılar bullinq və kiberbullinqin strukturu və mahiyyətini anlamaq məqsədilə bullinq və kiberbullinqin yayılma nisbətini (Smith et al., 2008), cins, yaş, sosial-iqtisadi durumunu (Finn, 2004) və onlar arasındakı fərqli və oxşar cəhətləri ölçdülər. Gendər məsələsi daimi olaraq bullinq və kiberbullinqin əsas indikatorlarından olmuşdur. Çünki qadın və kişilərə qarşı aqressiv davranışlar bir-birindən fərqlənə bilər (Borsa, Damasio, Bandeira, və Gremigni, 2013). Qadınlar adətən birbaşa olmayan, kişilər isə birbaşa və fiziki bullinqə baş vururlar (Björkqvist, Lagerspetz, və Kaukiainen, 1992). Çox az sayda edilən araşdırma göstərdi ki, qadınların həm bullinq etməkdə həm də qurban olma ehtimalı kişilərdən üstün deyildir ( Smith et al., 2008). Gender faktori ilə yanaşı, yaş məsələsi də önəm kəsb edir. Çünki bu amil də bullinqin səviyyəsinin araşdırılmasında və qurban olabilmə ehtimalına təsir edir. Maraqlıdır ki, yaş artdıqca bullinq qurbanları özlərini bullinq və kiberbullinq edənlərin fiziki, psixoloji, verbal zorbalıq hallarından nisbətən qoruya bilir. Halbuki, kiberbullinq halında özlərini qoruma ehtimalları çox azdır (Wang, Iannotti, və Nansel, 2009). Mövzü ilə bağlı aparılan tədqiqatlarda tez-tez müraciət olunan mövzülardan biri də bullinq etmə səbəbləridir. Olweus və digərləri (1993) tərəfindən də bildirildiyi kimi, bullinq aqressiyanın başqa bir növüdür və bu davranışı törədərkən seçilən motiv dəyişkən və individualdır . Ənənəvi bullinqin səbəb olduğu daxili problemlər , posttravmatik stress pozğunluğu, baş ağrısı, halsızlıq, yuxusuzluq, əsəb problemi , psixomatik problemler, depressiv olmaq və intihara meyillilik daxil edilir. Kiberbullinqə də oxşar nəticələr daxildir (Hinduja və Patchin, 2010). Müəllimlərin bullinq və kiberbullinq haqqında təsəvvürlərinin öyrənilməsi onların bu problemlərə necə cavab verdiyi barədə məlumat almaq üçün böyük əhəmiyyət kəsb edir (Yoon və Bauman, 2014). Azərbaycanda son zamanlarda bullinq halları artmışdır. İlk dəfə olaraq bullinq haqqında intensive müzakirə sosial mediada Elina Haciyevanın məktəbdəki aqressiv davranışlardan dolayı intihara baş vurması olmuşdur (Mahmudova L, 2019). Müzakirələr zamanı bəlli oldu ki əslində kimsə dəqiq olaraq bu tipli hərərktləri bullinq adı altında bilmir və buna görə də məktəblərdı bu məsələyə qarşı profilaktik tədbirlər görülmür (Mahmudova,2019). Son olaraq 4 oktyabr 2022-ci il tarixində paytaxt məktəblərindən birində iki oğlan tələbə arasında baş vermiş mübahisə təktərəfli davaya səbəb olmuş, şagirdlərdən biri digərini ciddi şəkildə döymüş və fiziki zərər yetirmişdir. Bu anları şagirdlərdən biri videoya almşdır. Məktəb rəhbərliyi sadəcə olaraq valideynlərdən izahat almış və hüquq-mühafizə orqanlarına xəbər vermişdir (Mahmudova,2019). Bullinq həmdə sosial-ədalət prinsipinin pozulmasıdır. Sosial ədalət hərkəsin rifah və fürsətlərə bərabər sahib olmasını dəstəkləyən bir anlayışdır (Clingerman 2011, 337). Bu səbəbdən bərabər imkanların verilmədiyi cəmiyyətlərdə bullinq hallarını müşahidə etmək təəccüb yaratmır. Azərbaycanda bu məsələ qanunvericilikdə öz yerini tapmalı və antibullinq proqramlarının hazırlanmasına gərək vardır (Mahmudova L, 2019).

**Tədqiqatın strukturu**

Tədqiqat xülasə, giriş, tədqiqatın nəzəri əsasları, metodologiya, tapıntılar, nəticə və müzakirə, tövsiyyələr hissəsindən ibarətdir.

1-ci hissədə giriş olmaqla tədqiqatın aktuallığı, tədqiqatın önəmi, tədqiqatən məqsədi, tədqiqatın strukturu, tədqiqat sualları barədə məlumatları əhatə edir.

2-ci hissədə tədqiqatın nəzəri əsasları olmaqla Bullinq anlayışı, Kiberbullinq anlayışı, Bullinqin növləri, Kiberbullinqin növləri, Bullinqlə əlaqəli nəzəriyyələr, Bullinqin və kiberbullinqən Azərbaycandakı vəziyyəti, Məktəb mühiti və bullinq, Gender və yaşın bullinq və kiberbullinqlə əlaqəsi, Bullinqin və kiberbullinqin nəticələri, Mübarizə üsulları başlıqları üzər məlumatları ehtiva edir.

3-cü hissə istifadə edilmiş metodologiya üzrə müxtəlif nüanslar qeyd edilmişdir.

4-6-cı hissələrdə isə tədqiqat zamanı müəyyən olunmuş tapıntılar, nəticələr və bu nəticələrdən əldə olunmuş tövsiyələr verilmişdir.

**Tədqiqatın məqsədi**

Aparılan tədqiqatın məqsədi təhsilalanlar və təhsilverənlər arasında bullinq və kiberbullinqlə bağlı təsəvvürlərin öyrənilməsi, onlarla necə mübarizə aparıldığına dair fikirlərin toplanılması, gender və yaşa uyğun olaraq bullinqin və kiberbullinqin əlaqəsini, bullinq və kiberbullinqin ciddi fəsadlarını və Azərbaycandaki cari durumun tədqiq edilməsidir.

**Tədqiqatın önəmi**

Məktəblərdəki bullinq, xüsusilə həmyaşıdlar arasında baş verən ən vacib problemlərdən hesab edilir və Azərbaycanda da ictimaiyyətin və medianın diqqətini özündə cəmləşdirib. Ənənəvi bullinqə əlavə olaraq kiberbullinqdə yeniyetmələrin aktual probleminə çevirilib. Şagirdlər arasında zorakılıq hadisələri həmişə məktəbin bir hissəsi olub, ancaq indi onlar daha çox gözə çarpır. Son zamanlarda bir çox məktəblərdə bullinq hallarının artığı görünür (Mahmudova, 2019). Bu özünü xüsusilə də həmyaşıdlar və oğlanlar arasında göstərir (Mahmudova, 2019) Məktəblərdə ənənəvi bullinq verbal və fiziki olaraq baş verir. Bullinqə döymək, uyğun olmayan vulqar ifadələrin işlədilməsi, söyüş və nalayiq ifadələrin işlədilməsi təhdid etmək və hədələmək, qrupdan kənarda saxlamaq, fiziki və psixoloji şiddət göstərmək daxildir (Mahmudova,2019). Günümüz texnologiya ilə sıx bağlıdır və bu özünü demək olar ki, hər sahədə göstərir. Kiberbullinq müəyyən bir nəfərə qarşı telefon, kompüter və digər elektron vasitələrlə bilərəkdən həyata keçirilən hal və qısnamadır (Hinduja & Patchin, 2010). Bullinq məktəblərdə psixoloji və sosial problemlərə, intihara, fiziki

pozğunluğa, akademik uğursuzluğa hətta silahlı atışmalara səbəb ola bilir. Məktəbdəki zorbalar öz sinif yoldaşları arasında müxtəlif səbəblərdən dominantlıq quraraq onlara ağalıq edir,düşmanca münasibət göstərir (Bandura, 1973) və digərləri ilə düzgün münasibət qurmalarına ciddi təhdid törədirlər (Espelage, Green & Wasserman, 2007; Harlacher & Merrell, 2010). Bullinqin psixoloji,fiziki və emosional təsirləri şagirdlərin məktəbə getmə istəklərini və məktəbdə olarkən diqqətlərini vermə bacarığını azaldaraq davamsızlığa və uğursuzluğa yol açır. (Kowalski,2008). Bu səbəbdən pedaqoqların bullinqi dərindən araşdırmaları və positiv öyrənmə mühiti yaratması zəruridir. Həm müəllimlərin həm də şagirdlərin bullinq və kiberbullinqlə bağlı təsəvürlərini bilmək onların məktəbdəki təhlükəsizlik mühit olması ilə sıx əlaqədardır. Məktəbdəki uşaqlar bilərəkdən və ya bilməyərəkdən zorbalara yardımcı olur və qurbanda ciddi travmalara səbəb olur. Bunu edərkən onların ya qorxu yada bilgisizlikdən törətmə ehtimalları daha yüksəkdir. Eyni zamanda müəllimlərin də bu mövzü ilə bağlı fikirlərinin öyrənilməsi baxımından tədqiqat əhəmiyyət kəsb edir. Müəllimlər şagirdlərin həyatında mühüm rol oynayır və bullinq haqqında təsəvvürlərin yaranmasında və ona qarşı necə cavab verilməsi barədə əsas rol model hesab edilir ( Smith,2008). Husman və Eron (1984) bildirib ki, müəllimlər bu problem haqqında bilgisiz olduğu təqdirdə şagirdlərdə bu halların normal olduğu fikri yaranacaq və bu tipli hərərkətləri qüvvətləndirəcəkdir. Eyni zamanda bütün bunlar şagirdlərin gələcəkdəki həyatlarında travmatik problemlərə, sosiallaşmada problemlerin yaranmasına (Szewczyk-Sokolowski et al., 2005) və içinəqapanıqlığa səbəb ola bilər və bu da ideal olmayan bir cəmiyyət üzvü olmağa gətirib çıxara bilər. Bullinqə və kiberbullinqə məruz qalan şəxslərdə tez-tez psixoloji problemler üzə vurur. Bunlara depressiya, antisosiallıq, intihara yönəlik düşüncələr, neqativ hal dəyişikliyi daxildir (Mahmudova,2019). Bütün bu səbəblərdən dolayı mövzu radikal əhəmiyyət daşıyır və araşdırmaya dəyər bir hala gəlir.

**Mövzu ilə əlaqəli aparılmış tədqiqatlar**

Aliye Ateş yazdığı məqaləsində bullinq və valideyn əlaqləri vurğulanır. Beləki, avtoritar ailələrdə böyüyən uşaqların öz güvənlərinin və özlərinə hörmət səviyyələrinin daha aşağı olduğunu bildirir (2017). Əgər ailə həddən artıq rahat davranışlar göstərərək,uşağın hər istəyinə "hə" deyirsə bu uşaqlarda digərlərinə qarşı diqqətsizli*yə* və həsas olmamağa gətirib çıxarır. Qurban olabiləcək tələbələrin ailələrində ortaq xüsusiyyətlərin olduğu bildirir: uşaqlara diqqət və qayğı göstərməmək, həddən artıq qayğısız olmaq,uşaqlarla maraqlanmamaq və s. Bullinq edənlərin ailələrində aqressiv davranış onların həm ailədə bacı-qardaşlara daha sonra isə həmyaşıdlarına qarşı zorbalıq edəcəyinə səbəb olur.

Mert Erdem bullinq hallarının təkcə məktəbdə yox əsasən məktəbəqədər yaşlarından etibarən formalaşdığını və uşaqlar arasında tez-tez göründüyünü vurğulayır (2018) . Məktəbəqədər

müəssisələr uşaqların ilkin olaraq sosial mühitdə özlərini tapdığı və həmyaşıdlarıyla ünsiyyət qurduğu məkandır. Burada qurulan münasibət daha sonrakı illərdə məktəb həyatındada özünü əks etdirir. Məktəbəqədər müəssisə həm də uşaqların emosional inkişafının formalaşmağa başladığı yerdir. Həmyaşıdları tərəfindən rəddedilən uşaqlarda zorbalıq etmə ehtimalları artır və bu özünü əsasən oyun mərhələsində göstərir. Şəxsi keyfiyyətlərin kifayət qədər olmaması uşaqlarda qurban olma ehtimalını artırır.

Yahya Aktu, Bedrettin Varol yazdıqları məqalədə psixolojik şiddət davranışı ilə bağlı metaforlardan istifadə etmişlərdir (2017). Psixoji şiddət də aqressiyanın növlərindən hesab edilə bilər və bunu tədhid, acındırma və qısıtlama kimi kompenentlərindən birləşməsi kimi başa düşmək mümükündür. Ən çox istifadə edilən metafor dəmir qəfəs, ən az olan isə bıçaq, kapitalizm, alarm, körpə və s. olmuşdur. Psixoloji şiddətin dəmir qəfəsə bənzədənlər deyir ki o insanın azadlığını əlindən alır. Bu anlayışı zəlzələyə bənzədənlər bunu qeyd etmişdir ki , o zəlzələyə bənzəyir çünki bir anda olur və təsiri illərlə davam edir,zəlzələ kimi insanın xəyal və ümidlərini sarsıdar. Psixolojik şiddəti zəhərə bənzədənlər onu içdikcə insanın buna dözdüyünü amma bu vəziyyətlə razılaşdıqca insanın yox olduğunu ifadə etmişdir. Bu durumu drel`ə bənzədənlər isə onun daimi olaraq səs çıxarıb insanın beynini deşdiyini bildirir. Psixoloji şiddət əslində tez-tez amma üstüqapalı şəkildə baş verir və bullinq zamanıda yeniyetmələr arasında özünü göstərir.

Wang, Iannotti, və Nansel bullinq və kiberbullling haqqında araşdırma etmiş və əsasən bullinq və kiberbullinq zamanı 2 məsələni araşdırmışdır (2009). Birinci olaraq bullinq edən və qurbanın yaş, cins, irq, sosial-iqtisadi statusu nəzərdən keçirmişlər. İkinci olaraq isə yeniyetmələrin valideynləri və həmyaşıdları ilə olan münasibətləri olmuşdur. Onlar 6-10-cu siniflər arasında təxminən 7.508 şagird arasında sorğu aparmışlar. Onlardan 12.8% i fiziki bullinqə, 36.5%-i verbal bullinqə, 9.8%-i isə kiberbullinqə məruz qaldıqlarını vurğulamışlardır.

Keith və Martin Kiberbullinq dünyasında mədəniyyətin formalaşdırılması adlı məqaləsində qeyd edir ki kiberbullinqə məruz qalanlar bəzi spesifik davranışlar göstərirlər (2005). Məsələn bəziləri kompyuterdə çox vaxt keçirir, yatamaqda problemlər yaşayır və kabus görmə halları artır, depressiv hiss edir və səbəb olmadan ağlamağa başlıyırlar, antisosiallıq halları artır, ev tapşırıqlarını etməkdən geri qalırlar. Hətta onlar uşaqlara kiber aləmdə ehtiyyatlı olmaq üçün bəzi tövsiyyələr vermişdir. Buraya heç vaxt şəxsi informasiyanın başqaları ilə paylaşılmaması, problem yaşayarlarsa güvənilir bir yetişkindən yardım almaları, kiberbullinq edənlərin mesajlarını oxumamağı, blok etməyi, ümumiyyətlə tanımadıqları insanlarla onlayn əlaqə qurmamaları tövsiyyə edilmişdir.

Çiğdem Acı və Esra Saraç Eşsiz kiber zorakılığın aşkarlanması üçün neyron şəbəkə əsaslı təsnifatçıların performans təhlilini araşdırmışdır (2018). Bu araşdırmada mətn yazılarının siniflǝndirilmǝsi üçün istifadə edilən təməl metodlar Formspring.me və Myspace

platformalarından istifadə edilmişdir. Formspring.me data toplusu ümumilikdə 50 fərqli istifadəçidən əldə edilmiş 13157 ədəd şərhdən ibarətdir. Mesajların 892-si kiberbullinq işərikli olma baxımından pozitiv, 12266 mesaj isə neqativ olaraq qeydə alınmışdır. Myspace data toplusunda fərqli Myspace söhbətlərindən əldə edilmiş məlumatlarda 357 pozitiv, 1396 isə neqativ olmaqla 1753 mesaj təsbit edilmişdir. Bunu həyata keçirərkən RBF neyron şəbəkəsindən istifadı edilmişdir. RBF həm təcrübəli həm də təcrübəsiz kompenentlərə bölünür. Üç hissədən ibarətdir: gizli qat, giriş qatı, çıxış qatı. Gizli qat neyronları, giriş qatı isə data bölümündəki sintaksizləri əhatə edir. Bu araşdırmanın məqsədi gələcəkdə araşdırılacaq kiberbullinq təsbiti üçün faydalı olması planlanmışdır.

Rosario Del Rey1, Jose A. Casas və Rosario Ortega müxtəlif kiberbullinq rollarına ConRed proqramının təsiri haqqında yazmışdır (2016). ConRed proqramı kiberbullinqin qarşısını almaq və ona qarşı mübarizə stillərinin təkmilləşdirilməsi üçün nəzərdə tutulan nəzəriyyə əsaslı proqramdır.Bu proqrama şagirdlər, müəllimlər və valideynlər daxil edilmişdir. Şagirdlər eksperimental qruplara ayrılmışdır. Araşdırma əsasən 11-19 yaşlı yeniyetmələr arasında aparılmışdır. Nəticədə, kiber-qurbanlar və ətrafdakılar internetdəki şəxsi məlumatlara nəzarətlə bağlı məlumatları artmış və internetdən olan asılılıqları azaldılmışdır. Xüsusilə də bu proqram kişi iştirakçılar arasında daha təsirli effektərə səbəb olmuşdur.Beləki onlarda affektiv empatiya hissində artım görülmüşdür. Bu program əsasən kiberbullinq edən, kiber qurban, ətrafdakılara tətbiq edilmişdir. Qızlar və oğlanlar arasında aparılan araşdırmada onların internetde daha çox vaxt keçirdiyi və ənənəvi bullinqə daha az üstünlük verdiyi ortaya çıxdı.

Louise Bowers, Peter K. Smith və Valerie Binney "Ailə terapiyası jurnalı" ndakı məqaləsində, bir insanın ailədaxili uyumluluq və güc qavrayışını ortaya çıxarmaq üçün AST və ya Ailə Sistemi Testindən istifadə etmişdir (1992). Ailə üzvlərinin bir-birinə qədər yaxın olduqlarını göstərmək üçün onlardan taxta fiqurları damalı taxtada yerlışdirmələri tələb olunmuşdur. Buradakı hər bir fiqur bir ailə üzvünü bildirir. AIS testi zamanı bullinq edənlər evdə bioloji atasının olmadığı bəlli oldu. Bu normal ailə strukturunun pozulması deməkdir. Araşdırma zamanı fiqurları ən kənara qoyanların bullinq edən olduğu ortaya çıxmışdır. Onların uyumluluq dərəcəsi çox aşağıdır. Onlarda bullinq qurbanları kimi atalarını analarındam güclü görsələrdə, bullinq qurbanlarından fərqli olaraq bacı-qardaşlarını da güc nöqteyi-nəzərdən üstün görürlər. Fiqurları mərkəzdə və ya digər ailə üzvlərinə yaxın yerləşdirənlərin bullinq qurbanı olduğu ortaya çıxmışdır. Ailədəki bacı-qardaşın önəmi, hədəf olan uşağa yəni bullinq qurbanına ən yaxın yerləşdirilərək göstərilirkən valideynlər hədəf uşaqdan daha uzaqda yerləşdirilmiş və güc olaraq digərlərindən üstün vəziyyətdə olmuşdur. Dörd fərqli ailə qrupundakı araşdırmadan belə bir nəticəyə gəlmək olar ki "İdarə edilən" uşaqlar adətən öz ailələrini orta dərəcədə uyumlu görürlər.

Wendy Troop-Gordona və əməkdaşları zorbalığa müdaxilə etməyən şəxslərdə bullinqə meyilllik adlı məqaləsində qeyd edilir ki, zorbalığa müdaxilə etməyən və sadəcə müşahidə edənlər güclü olan və bullinq edən həmyaşıdlarıyla ittifaq qurmağa, sinifdəki güc strukturuna əsaslanan təbəqələşməni daha da yüksəltməyə, özlərinin bullinq qurbanı olma ehtimalını azaltmaları və sosial cəhətdən avantajlı olanların davranışlarını təkrarladıqları ortaya çıxmışdır (2019). Bu araşdırma göstərdiki həm intrapersonal (başqasına qarşı zəif empatiya hissi və ya əxlaqi keyfiyyətlərdən uzaqlaşma həm də interpersonal davranışlar (populyarlıq) bullinqə müdaxilə etməyənlərdə bullinq etmə istəyini artırır. Xüsusilə sinifdə populyar olan uşaqlarda bu hallar daha çox görünür. Populyarlıq dedikdə aqressiya hansıkı yetişkinlik əlaməti kimi görünə bilir, fiziki cəhətdən güclü olmaq kobudluq etmək nəzərdə tutulur. Bütün bunların nəticəsində populyar uşaqlar bu davranışları göstərərək öz sosial təbəqəsini qorumağa çalışır. Onlar öz qrupları arasında tarazlığı saxlayaraq bullinq hallarına müdaxilə etsələrdə, öz qruplarından yəni populyar olmayanlar arasında bu hal özünü əks etdirmir. Bunu müşahidə edən ətrafdakılaronlar kimi olmaq üçün bullinq törədə bilərlər. İkinci olaraq empatiya hissinin olmamasıdır. Müəyyən müddətdən sonra onlar bullinq edə bilərlər. Əsasən sinifdə hansı uşaqlar qurban olmuşsa nlardan uzaqlaşma, onlara qarşı qayğı göstərməmə, hətta, bunu edənlərin tərəfində olmaq halları da arta bilər. Araşdırmaçılar bildirir ki, əxlaqi laqeydlik halı əsasən sosial münasibətlərdə tarazlıq yaratmaq və və digər olanlar arasında rəqbətli mühityaratmaqdan irəli gəlir. Oğlanlar əsasən burada əxlaq normalarını bəhanə edərək əslində əxlaqa zidd hərəkətlərdə iştirak edirlər. Cəmiyyətdə cinsiyyətlə bağlı olan məsələlərə əsasən müdaxil olur və bu şəkildə öz etdiklərini müdafiə edirlər.

Aybüke Yıldırım Bədən tərbiyəsi akademiyasında təhsil alanların bullinq meyillərini və onunla mübarizə etməkdə idamın rolunu araşdırmışdır (2022). Araşdırmada iştirakçılarda bullinqə meyillilik və duyğusal paylaşım əskikliyinin çox yüksək olmuşdur. Onların cinsiyyət faktoru ilə bullinq etmə meyilləri  arasında edilən analız nəticəsində o oğlanların daha çox meyilli olduğu ortaya çıxmışdır. İştirakçıların bullinqlə baş etmə, ona qarşı durma, report ermə və ya bildirmə, hər hansı bir reaksiya verməmək şüuraltısı haqqında statistiki olaraq fərq görülmüşdür. İştirakçıların yaşı artıqca mübarizə tədbirləri də dəyişmişdir.

Pakyardım apardığı tədqiqatda idmanın xüsusi növü olan tekvando ilə məşğul olanların şiddətə meyilliliklərini araşdırmışdır (2020). Buraya 371 türk idmançı daxıl edilmişdir və nəticədə onların şiddətə meyilliliklərini yaş, cins, idman klubu və iqtisadi cəhətdən statisiki fərqlilik görülməmişdir. Valideynlərin təhsil vəziyyəti,idman etmə təcrübəsi, məşqçinin münasibəti məsələlərində isə dəyişiklik olmuşdur. 15 yaşında olan idmançıların şiddətə meyilliliklərinin çox olduğu ortaya çıxmışdır.

Pınar Karahan valideyn üslubları, düzgün qidalanmamaq və xarici görünüşdən məmnuniyyətsizlik arasındakı bağlantının kiberbullinqlə əlaqəsini araşdırmışdır (2022) . Emosional qidalanma bəzi qidaların emosiyaları requlasiya etmək üçün tükədilməsidir. Bəzi qidalar mənfi emosiyaları düzəltmək üçün istifadə olunur. Artıq çəkiyə sahib olanlar əslində bir çox mənfi tənqidlərə, təhqirlərə məruz qalırlar. Əslində bullinqə və kiberbullinqə uğrayanlar bu duyğularla başa çıxmaq üçün bu üsula baş vururlar. Bədən forması ilə problemi olanlar sosial mediada və onlayn platformalarda daha çox vaxt keçirir və nəticədə kiberbullinqə də daha çox məruz qalırlar. Bədən formasından narazı olanlarda yüksək aqressiyaya malik olur və həm verbal həm də fiziki cəhətdən bunu büruzə vurular. Bu problemi yaşanyanlar əsasən internet üzərindən kiberbullinqə baş vuraraq öz əsəblərini və narahatçılıqlarını ifadə edirlər. Valideynlər uşaqların həyatında önəmli rol oynayırlar.Valideyn üslübları da onlarla münasibətlərə ciddi təsir edir. Avtoritet valideynlərə sahib olanların bullinq qurbanı olma ehtimalı çoxdur. Liberal ailələrdə kiberbullinqə uğrama və ya törətmə daha aşağı tapılmışdır. Laqeyd valideynlərlə böyümüş uşaqlarda isə kiberbullinq etmə ehtimalı daha çox olaraq ortaya çıxmışdır. Emosional qidalanma bəzi qidaların emosiyaları requlasiya etmək üçün tükədilməsidir. Bəzi qidalar mənfi emosiyaları düzəltmək üçün istifadə olunur. Artıq çəkiyə sahib olanlar əslində bir çox mənfi tənqidlərə, təhqirlərə məruz qalırlar. Əslində bullinqə və kiberbullinqə uğrayanlar bu duyğularla başa çıxmaq üçün bu üsula baş vururlar. Bədən forması ilə problemi olanlar sosial mediada və onlayn platformalarda daha çox vaxt keçirir və nəticədə kiberbullinqə də daha çox məruz qalırlar. Bədən formasından narazı olanlarda yüksək aqressiyaya malik olur və həm verbal həm də fiziki cəhətdən bunu büruzə vurular. Bu problemi yaşanyanlar əsasən internet üzərindən kiberbullinqə baş vuraraq öz əsəblərini və narahatçılıqlarını ifadə edirlər. Valideynlər uşaqların həyatında önəmli rol oynayırlar. Valideyn üslübları da onlarla münasibətlərə ciddi təsir edir. Avtoritet valideynlərə sahib olanların bullinq qurbanı olma ehtimalı çoxdur. Liberal ailələrdə kiberbullinqə uğrama və ya törətmə daha aşağı tapılmışdır. Laqeyd valideynlərlə böyümüş uşaqlarda isə kiberbullinq etmə ehtimalı daha çox olaraq ortaya çıxmışdır.

Abdulsamet Sönmez Həyat Bilgisi dərsliklərində bullinq mövzüsuna yer verilməsini araşdırmışdır (2021). Dərs kitabları şagirdlərin təhsil həyatında önəm kəsb edir və ən yaxşı şəkildə təşkil edilməlidir. Bullinq başlığı altında olmasada bu tipli ifadələr mətnlərdə görülmüşdür. Həyat bilgisi kitabında fiziki şiddətlə bağlı kobud davranma, zərər verəcək hərəkətlər, icazəsiz əşya almaq, tədid etmək, qidaları gizlicə oğurlamaq kimi ifadələr görülmüşdür. Bu tipli ifadələrin uşaqların duyğusal və fiziki inkişaflarına pis təsir edəcəyi düşünülmüşdür. Kitabda həmçinin bullinqə qarşı qoymaq üçün yardım alma,mühitdən uzaqlaşmaq və ya xəbərdarlıq kimi ifadələrə yer verilmişdir. Kitabda emosional bullinqlə bağlı qırıcı olmaq, haqsızlıq etmək, diskriminasiya etmək, alçadmaq kimi ifadələrə rast gəlmək olar.

Halil Aslan xüsusi təhsilə ehtiyacı olan uşaqlar arasında bullinq və kiberbullinq hallarını tədqiq etmişdir (2016). Eşitmə əngəlli uşaqlar və xüsusi istedadlı şagirdlər əsas iştirakçılar olmuşdur. Eşitmə əngəllilərin həm bullinq edən həm də bullinq qurbanı olma ehtimalları xüsusi istedadlı tələbələrdən daha çox olmuşdur. Araşdırmaya görə 21.1% eşitmə əngəlli şagird bullinq edən, 21.7% isə bullinq qurbanı olmuşdur. Xüsusi istedadlı uşaqların 7%-i bullinq edən olaraq ortaya çıxmışdır. Eşitmə əngəllilər asanlıqla bullinq qurbanı ola bilərlər çünki onlar bullinqə uğrayan zamanda bunu dilə gətirə bilmirlər. Eşitmə əngəlli uşaqlar edilən bullinqə aqressiv cavab verdikdə bu əngəllərindən dolayı anlaşılmaz durumda olub bullinq edən və ya qaydaları pozan kimi anlaşılırlar.

Budor H. Saigh və Nizar H. Bagadood Auitizmli uşaqların bullinq təcrübələri və anaların buna münasibətini araşdırmışdır (2022). Auitizimli uşaqlar əsasən fərqliliklərindən dolayı bullinq hallarıyla qarşılaşırlar. Araşdırmada uşaqların analarının münasibəti önəm kəsb edir çünki bu zaman auitizm olan uşaqlar analarından təsirlənir və buna əsasən bullinqə reaksiya verirlər. Analar əsasən belə vəziyyətlərdə sakit qalmağa üstünlük verirlər. Bəzi analar öz uşaqlarına müəllimlərə daha yaxın olmağı və bu şəkildə qorunmağı məsləhət verərkən bəziləri ümumiyyətlə belə olduqda məktəbə getməməyi məsləhət bilmişlər. Hətta auitizmli uşaqlar bu münasibətlərədən dolayı özləri məktəbə getməkdən qaçınırlar. Bu tipli uşaqlarda öz güvən çox aşağı olur və analar mütləq bu halları nəzərə alıb öz güvəni artırmağa çalışırlar. Bəzi auitizmli uşaqlar məktəbdə həddən artıq bullinq təzyiqinə məruz qalırsa bullinq edənlə üzləşmir və əslində qaçınma strategiyasını tətbiq edirlər. Bəzi analar məktəbdə bu hallara qarşı cəzaların kifayət olmadığınından şikayətlənirlər. Araşdırmada heç bir ana öz övladına bullinq edənə qarşı durmağı qətiyyən tövsiyyə etməmişdir. Onlar bunun övladlarında passiv aqressiya yaradacığını və mübarizədə effektiv olmadığını bildirmişlər.

Cairns, Carins, Neckerman, Gest və Gariepy 80 nəfər 4-cü sinif və 7-ci sinif şagirdləri arasında müsahibə aparmışdı. Onlar uşaqları yaş, cins, sinif, fiziki, sosial-iqtisadi cəhətdən qruplaşdırmışdır (1988). Daha sonra agressiv olmayan, aqressiv olan olaraq ayrılmışdır. Müəllimlər onlarla yaşdıqları təcrübələrinə əsasən belə qruplandırmışdır. Uşaqlar sorğunu sosial mediadakı rollarına əsasən doldurmuşdur və nəticədə həmyaşıdlarını ən yaxın dost və ya aqressiv olan olaraq müəyyənləşdirmiş və populyarlıq, akademik uğur, təcavüzkarlıq baxımından yetərliliklərini tamamlamışdırlar. Buna əsasən aqressiv uşaqlar özünü kontrol edəbilən uşaqlardan daha az populyar olmuşdur. Amma onlara görə bu nisbət bərabərdir. Onlar əsasən aqressiv olanlarla münasibət saxlayır və belə davranmağa sövq edilirlər. Bu o deməkdir ki onlar arasında aqressiya normal qəbul olunmuşdur.

Sutton, Smith və Swettenham bullinq zamanı vəziyyəti daha da alovlandıran və ya bu vəziyyətin baş verməsi üçün yardımcı olan uşaqlar arasında sosial idrak səviyyələrini ölçmüşdür (1999). Sosial idrak zamanı bullinq edənlərin daha üstün olduğu ortaya çıxmışdır. Gücləndirici və ya yardımcı rolunu oynaynalar isə bullling edənlərdən çox olmasa da bullinq qurbanlarından və ya digər qrupdan daha üstün olmuşdur. Bu data onu göstərdiki bullinq edənlər heç də sosial idrak cəhətdən zəif deyillər. Araşdırma göstərdiki sosial idrak bullinq edənlər üçün çox vacibdir ona görə ki onlar asanlıqla öz qurbanlarını seçə bilirlər, ətrafı yaxşı analiz edib manipulyasıya edirlər və birinə necə və hansı yolla sataşacaqlarını bilirlər. Gücləndirici və yardımcı funksiyasında olanlarda bu cəhətdən bullinq edənləri rol model olaraq görür və bullinq qurbanı olma vəziyyətindən qaçınırlar.

Alev Aslan və Betül Önay Doğan onlayn şiddət: potins platforması üzərindən kiberbullinqi araşdırmışdır (2017). Araşdırmada Potinss applikasiyası əsas mühit olaraq göstərilmişdir. Potinss sosial media növlərindən biridir və burada əsasən anonim olaraq paylaşımlar edilir. Bu platformanı quran şəxslər 16 yaşında olan iki məktəblidir. Türkiyədə bir çox məktəbli arasıda bu platformadan istifadə geniş vüsət almışdır. Bu aplikasiyada olan 1034 məktəb arasından 100 məktəb seçilmişdir və onların paylaşımları incələnmişdir. Buradakı yazılar anonim olduğu üçün bunu yazanlar rahatlıqla gizlənə bilirlər və fiziki mühitdən fərqli olaraq hərkəs buna qadir ola bilir. Sosial bir platformada şiddət məzmunlu kontentlər daha tez və asan yayılır və bu da bir çox şagirdin bu informasiyanı tez əldə etməsinə səbəb olur. Araşdırmada 7817 kontent başlığından 3156 sının ad qeyd edilərək paylaşıldığı ortaya çıxmışdır. Şagirdərin bir-birinə söyüş söydüyü və təhqir etdiyi açıqca ortaya çıxmışdır. Hətta onlara istinad edərkən sinif nömrələridə yazılmışdır. Potinssdə bir çox neqativ kommentlər silinə bilir amma hamsına nəzarət edilə bilmir. Bu platformada 52 ad qoşma ifadəsinə rast gəlinmişdir. Buraya "Somon", "Doberman" kimi nümünələrlə qarşılaşılmışdır. Ad qoşma əsasən birinin fiziki xüsusiyyətlərindən irəli gəlinərək yaradılmışdır. Lağa qoymaq da kiberbullinq növlərindən hesab edilir. Burada "pis iy gələnlər" və ya "Məktəbin keçəlləri" kimi başlıqlar yaradılmışdır. İfşa etmək də buraya daxil edilir. Əsasən hansı uşaqların siqaret çəkdiyi, hansının imtahanda köçürdüyünü, sevgililərinin kim olduğu və s halları ifşalanması populyar olomuşdur. Həmçinin həqarət və təhqir məzmunlu məzmünlara da rastlanmışdır. Məsələn: "qarğa burunlu", "çirkin", "boyu 110 eqosu 250" və s kimi. Növbəti olaraq fotoların yayılması halı aktual olmuşdur. Bələki, şagirdlər bir şagirdin şəklini çəkərək applikasiyaya yerləşdirmiş və üstünə həqarət və təhdidlər yazmışdır.

**I**

**Birinci fəsil**

# 1. Tədqiqatın nəzəri əsasları

## 1.1 Bullinq haqqında əsas anlayışlar və xarakterik xüsusiyyətlər

### 1.1.1 Bullinq anlayışı

On altıncı əsrin əvvələrində "bully" sözü "sevgili", holland dilində isə "qoruyucu" və ya "qardaş" mənasını verən "boele" sözündən gəlmişdir. On yeddinci əsrdə isə bu söz kobud mənasını verən "blusterer"sözündən götürülmüşdür (Harper, 2008). Bullinqin bir çox növü vardır:orduda bullinq, iş yerində bullinq, cinsi azlıqlara qarşı olan,cinsi bullinq, əngəllilərə qarşı olan bullinq və s. Mobinq və ilk dəfə 1972 ci ildə İsveçdə Leymann tərəfindən təqdim edilmişdir. O məktəblərdəki uşaqların nə etdiklərini haqqında maraqlanmış və və mobbinq ifadəsini istifadə etmişdir (Leymann, 1996). Mob sözünün mənası cəmiyyətdə şiddətə meyilli olan stabil olmayan qrup deməkdir. Həmçinin ortalıqda dolanan, problem yardan anlamına da gəlir (Tınaz, 2006, pp.7). Bullinq sərtlik və tiranlıq mənasında istifadə olunursa, mobbinq isə kütləvi hücüm mənasına gəlir və bullinq əsasən məktəblərdə, mobbinq isə iş yerində daha çox görülür. Zorakılıq özünü qoruya bilməyəkdə çətinlik yaşayan bir nəfərə qarşı istiqamətləndirilmiş bir və ya birdən çox şəxs tərəfindən qəsdi və  davamlı olan neqativ davranışdır (Olweus, 1993). Smith  (2008) isə bullinqi davamlı olan aqressive davranış kimi səciyyələndirmişdir. Məkətbdə ilk dəfə bullinq halı haqqında araşdırma Dan Olweus tərəfindən 1970 ci ildə Skandinnaviya ölkələrində (İsveç, Norveç, Finlandiya) aparılmışdır. Bullinq aqressiyası verbal, fiziki və ya birbaşa olmayan psixoloji ola bilər (Harris, 2006). Amerikan Psixooji Assosiasiyası bullinqi zəif və ya balaca şəxslərə qarşı törədilmiş davamlı, təhdidedici və aqressiv davranış olaraq səciyyələndirir (VandenBos, 2007, p. 139). Oksford Universiteində kriminoloq və ilk bullinq tədqiqatçısı olan Devid Farrington bullinq edənin davranışını təzyiq kimi təsvir etmişdir (Farrington, 1993). Maraqlı təsvirlərdən biri də bullinqin şəxsi terrorizm formalarından biri hesab edilməsidir. Bu davranış narahatlıq törətməyə səbəb olur (Ross, 2002, p. 106). Bullinqlə əlaqədar bir neçə termin istifadə olunur. Bunlara: bullinq edən, kiberbullinq edən, Bullinq qurbanı, müşahidəçi, kiberqurban aiddir.

| | |
|---|---|
| **Bullinq edən** | Aqressiv və davamlı olaraq bir şəxsə zərər vermək niyyəti olan insan ( Compton, 2014). |
| **Bullinq** | Bir şəxs və ya qrup tərəfindən özünü müdafiə edə bilməyən şəxsə tərəf davamlı təkrarlanan psixoloji və fiziki davranışlardır (Olweus, 1993). |

| | |
|---|---|
| **Müşahidəçi** | Passiv şəkildə müşahidə edən və report etməyən, pedaqoqların da daxil olduğu, insan fiquru (Craig, 1997). |
| **Bullinq qurbanı** | Bullinqə qarşı müdafiəsiz olan şəxs (Yoon, 2014). |
| **Kiberbullinq** | Kompyuter, telefon və ya hərhansı bir texnoloji cihazlardan istifadə edərək təhdid etmək, şayiə, qiybət və sirləri yaymaq (Raskauskas, 2010). |
| **Kiberbullinq edən** | Texnoloji alətlər vasitəsilə insanla psixoloji baxımdan neqativ hiss etdirən, alçaldıcı davranışlar nümayiş etdirən şəxs və şəxslərdir (Olweus,1993). |
| **Kiber qurban** | Kiberbullinqə məruz qalan şəxs (Olweus,1993). |

1.1 Cədvəl 1 Bullinqlə bağlı terminlər

Bullinq edənlər passiv şəkildə konfliktdən uzaq olan və sərt cavab verməkədən çəkinən bullinq qurbanları tapmaq üçün sözün məcazi mənasında məktəbin həyətindən tutmuş iclas otağına qədər "alış-verişə" `ə (Fried və Sosland, 2009, p. 29) çıxırlar. Passiv bullinq qurbanları asanlıqla kontrol altına alınır və alçaldıla bilir. Bullinq edənlər bir problemə çarə axtarmırlar onlar əsasən güc və kontrol axtarışındadırlar (Espelage,2007). Bullinq rutin olaraq baş verən konfliktlərdən fərqlidir. Rutin konflikt adətən hərhansı bir yalnış anlaşılma zamanı və ya bir probleme müxtəlif bucaqdan baxarkən yaranan fikir ayrıseçkiliyi zamanı ortaya çıxır halbuki,bullinq güc, ağrı, təzyiq, alçaltma və yadlaşdırmanı özündə cəmləyir. Bullinq edənlər xüsusilə də güc baxımından zəif olanları hədəf alır. Buraya həm fiziki, sosial, koqnitiv, sosial-iqtisadi cəhətdən fərqliliklər aid edilə bilər (Roberta Heydenberk və Warren Heydenberk, 2012). Tədqiqatçılar bullinqin 4 əsas formasını müəyyən etrmişlər və bunlar: fiziki, verbal, münasibət əsaslı və kiber (Wang et al. 2009). Fiziki bullinq əsasən aqresiyya xarakterli vurmaq, döymək, itələmək kimi xarakterizə olunur. Münasibət əsaslı bullinq isə bullinqin sosial cəhətdən tədric olunması hesab edilir və özünü şayiə yaymaq, kimisə qrupdan kənar tutmaq və s hesab edilir. Verbal bullinq isə söz əsaslı aqresiyya məsələn ad-qoşma, sataşmaq və s kimi xarakterizə edilir (Bauman və Del Rio 2006). Kiberbullinq isə texnologiyadan istifadə edərək həmyaşıdlar arasında mesaj,elektron poçt və ya sosial media üzərindən bullinq etməkdir (Butler et al. 2009). Bacı-qardaş arasında olan bullinq yeni bir növ hesab edilir. Bacı-qardaş arasında olan bullinq əslində adi bir hal olaraq özünü göstərsədə (Caspi, 2012), tədqiqatçılar bəzi davranışları aqressiv bullinq kimi hesab edirlər (Duncan 1999, Menesini et al. 2009). Məktəbdəki bullinqlə oxşar olaraq bacı-qardaş bullinqi də fiziki, verbal və münasibət əsaslı olur. Bu davranışlar qəsdən ola bilər və güc balansızlığından yarana bilər (Menesini et al. 2009). Araşdırmaya görə, bullinq edənlərin 16.2%-i bacı-qardaş bullinqində iştirak edən və məktəbdə də bunu davam etdirənlərdir(Wolke və Samara 2004). Bu səbəbdən həmyaşıdlar və bacı-qardaş arasında olan bullinq arasında əlaqə vardır. Bullinqin 3 əsas forması vardır: fiziki,

münasibət əsaslı və verbal (Olweus, 1993). Fiziki bullinqə vurmaq, döymək, təpikləmək və ya hərhansı bir fiziki şiddət hesab edilir. Verbal bullinqə isə sataşmaq, ad qoşmaq, təhdid aid edilir. Münasibət əsaslı bullinq isə sosial aqressiyanın bir formasıdır və dedi-qodu, bilərəkdən bir nəfəri qrupdan uzaqlaşdırmaq, şaiyələr yaymaq və bir şəxsin həmyaşıd qruplarında zəif pozisiyada saxlamaqdır (Olweus, 1993). Münasibət əsaslı bullinqdə bəzən bullinq edən şəxs bunu edərkən sanki qarşı tərəfə zərər vermək niyyəti yoxmuş kimi göstərir (Björkqvist, Lagerspetz, və Kaukiainen, 1992). Əksər tədqiqatçılar bullinqi adətən bullinq edən və bullinq qurban arasında olduğunu müəyyən etmişdir (Olweus, 1993). Amma bu hərzaman bele deyildir. Bullinq edərkən təkcə bullinq edən və bullinq qurbanı yox həmdə ətraf mühit və orda olanlar yəni müşahidəçilərdə rol oynayır. Zorbaqlıqla bağlı hallarda iştirak edənlər adətən ətraf mühitlə sıx əlaqədə olur, məsələn, sinif mühiti və hədəflənən şəxsə neqativ təsir göstərə bilir (Salmivalli, 2010). Reportlara əsasən 85% bullinq hallarına təsir edən amillərdən birinə müşahidəçilərdə aiddir. Onlar adətən bullinq edəninin yanında çıxış edərək vəziyyəti daha da alovlandırır. Bu səbəbdən onları bu durumdan ayrı analız etmək olmazdı ( Craig, 1997). Bullinqi anlamaq üçün qruqlara və onların üzvləri arasındakı münasibətlərə diqqət etmək lazımdır (Salmivalli, 2010). Juvonen (2013) öz tədqiqatında qeyd edir ki, çox az olsada bullinq hallarını müşahidə edənlər özləri daha az güvəndə hiss edir və 42% tələbə ən azı bir bullinq hadisəsi ilə üzləşir.

### 1.1.2 Bullinq edənin xarakterik xüsusiyyətləri

Tədqiqat göstərir ki hiperaktiv bə impulsiv olan uşaqlar bullinq edən olmağa daha çox meyillidirlər (Farrington və Baldry 2010). Həmçinin eyni tədqiqat göstərir ki, empatiya hissi olmayan uşaqlar da bullinq etməyə meyillidirlər. Əlavə olaraq, aşağı İQ-lu uşaqlar,xüsusilə verbal olmayanlar, də bu kateqoriyaya daxildir. Hiperaktiv, impulsiv və empatiya hissi olmayan uşaqlar etdikləri davranışın başqalarını incidə biləcəyini düşünə bilmirlər. Həmçinin, özünümüdafiə hissi yüksək olan (Salmivalli et al. 1999) və cəmiyyətin neqativ davranışlara qarşı tolerant olduğunu düşünənlər (Marini et al. 2006) bullinq edən olmağa uyğun hesab edilirlər. Bəzi müsbət olan xarakteristikalar da həmçinin bullinq etməyə səbəb ola bilər. Məsələn,liderlik xüsusiyyəti olan uşaqlar bullinq edə bilərlər çünki onlar geniş sosial əhatəsi var. . Müəyyən davranış göstəriciləri vardır ki bullinq etmə ehtimalını artırır. Bele xarakteristikalardan biridə problemlerdən tez qaçma və xaricolmadır (Bollmer et al. 2005). Digər tərəfindən məktəbdə tez-tez problem yaradan və dürüst olmayan şagirdlər də buraya daxil edilir. (Farrington və Baldry 2010). Bu tipli uşaqlarda özünü və emosiyalarını idarəetmə zəifdir (Garnervə Hinton 2010). Ailə faktoruda əhəmiyyət kəsb edir. Əgər şagirdin ailəsindən hərhansı biri cinayət törətmişsə (Farrington və Baldry, 2010) və ya şiddət görmüşdürsə (Bowes et al. 2009) onların bullinq edən olma ehtimalı çox yüksəkdir. Bullinq edənlər həmçinin ailələrinin onların gündəlik davranışlarından xəbərsiz olduqlarını bildirirlər

(Marini et al. 2006). Bullinq dənlərin bir neçə ortaq cəhətləri vardır. NSSC-yə görə onlar əsasən aqressiv,konstruktiv olmayan,dominantlıqdan həzz alan hesab edilirlər. (Carney və Merrell, 2001). Onlar həmçinin tez qəzəblənən,acıxasiyyətli olurlar (Olweus, 1993). Bullinq edənlər digərlərinin davranışlarını səbəbsiz yerə və tam anlamadan aqnostik hesab edir və sosial münasibətlərdə çətinlik çəkirlər. Bullinq edənlər aşağı siniflərdən etibarən populyar olan uşaqlarla dostluq etməyə meyilli olurlar (Pellegrini, 2003) və dost tapmaq onlar üçün çox asan olur (Nansel et al., 2009). İki tipli bullinq edənlər vardır: populyar olan və olmayan (Farmer et al., 2002). Populyar olanlar əsasən digər populyar olan uşaqlarla sosiallaşırlar. Populyar olmayanlar isə adətən daimi olaraq görməzdən gelindikləri üçün bullinqdəm istifadə edərək diqqət çəkməyə çalışırlar (Olweus, 1993). Əksər bullinq edənlər aqressiyaya və şiddətə problemləri həll etməkdə pozitiv münasibət göstərirlər (Carney və Merrell, 2001). Onlar "mükafat" olaraq siqaret, pul və prestij əldə edirlər (Olweus, 1993). Onlar həmçinin dominantlıq qazanmaq üçün istifadə edirlər (Beale, 2001). Bəzi bullinq edənlər heç aqressiyanın dərcəsinin fərqinə varmırlar (NSSC, 1995). Bullinq edənlər həmçinin içki içmək və siqarət çəkmək kimi neqativ hərəkətlərə meyillidirlər (Nansel et al., 2009). Əlavə olaraq,onların problem həlletmə bacarığı çox zəifdir və problemləri həll etmək üçün xarici yollara (yəni daxilində həll etmirlər) baş vururlar. Onların məktəbdəki uğurları da zəif olur və məktəbi pis bir yer kimi təsvir edirlər (Nansel et al.; 2009). Bullinq edənlərin özünəhörmət hissi də zəif olur və bütün bunlar onların daxili güvənsizliklərindən gəlir. Tədqiqatçılar hesab edir ki bullinq edənlərin ailələri adətən narahatdırlar (Olweus, 1993). Adətən bullinq edənlərin valideynləri qayğısız,düşmanca münasibət bəsləyən və daimi olaraq uşaqların ehtiyaclarını rədd edən olurlar. Ata fiquru adətən zəif olur və analar adətən izolasiya olur və onların valideynlik tərzi adətən çox sərbəst olur ( Olweus, 1993). Bəziləri uşaqların bullinq etdiklərini bilsələr də bunu görməzdən gəlir və normal olaraq qəbul edir. Tədqiqatçılar hesab edirlərki,bullinq edənlərin aqressiv davranışları görməzdən gəlindikcə daimi olaraq artacaq və müəllimlərinə, bacı-qardaşlarına və həmyaşıdlarına da təsirsiz ötüşməyəcəkdir (Olweus, 1993). Bu tipli ailələrdə disiplin davamsızdır (Carney və Merrell, 2001). Bullinq edənlərin valideynləri adətən güc və sərtlikdən istifadı edərək balanslaşdırma yaradırlar (Pellegrini,2003). Cəza adətən fiziki olur və əsəb və emosiya partlaması isə nəticələnən bir haldır (Roberts, 2000). Nəticədə, uşaqlar aqressiyanı problemləri bitirmə vasitəsi kimi görürlər. Bullinq edənlər gördüklərini imitasiya edərək öz məqsədlərinə çatmağa çalışırlar (Patterson, Capaldi, və Bank, 1991;Roberts, 2000).

### 1.1.3 Bullinq qurbanının xarakterik xüsusiyyətləri

Bəzi koqnitiv və emosional faktorlar vardır ki bir uşağı bullinq qurbanı pozisiyasına salır. Garner və Hilton (2010) araşdırmışdır ki, qəmginlik  və kədər hissini nümayiş etdirərkən sosial normaları anlamayan uşaqların bullinq qurbanı olma ehtimalı daha çoxdur. Həmçinin

içinəqapanıq, sosial cəhətdən narahatlıq keçirən və itaətkar olanlar tez-tez bullinqə məruz qalır (Perren ,2013). Sosial kompetensiya cəhətdən zəif olanlar (Cook et al. 2010), problemləri içinə atan və çox az dostu olanların bullinq qurbanı olma ehtimalı yüksəkdir (Bollmer et al.2005). Yaxın dostu olmaq bullinq qurbanı olmaq ehtimalı azaldır (Hodges et al.1999). Eyniylə,qurbanlar ailəsindən də çox az dəstək görür (Demaray və Malecki 2004, Khatri və Kupersmidt 2003). Ailədə güvən olması ( Veenstra et al. 2005) və ata faktoru uşağı xarici təhdidlərdən və bullinqdən qoruyur (Flouri və Buchanan 2002). Ətraf mühitdəki faktorlar da bullinq qurbanı olub-olmamağı qabaqcadan müəyyən edir. Bir uşaqın irqindən və etnik mənsubiyyəti səbəbiylə qurban olma halı baş verə bilər (Boulton 2006, Nansel ve ark. 2001,). Juvonen (2013) müəyyən etdi ki, irq faktoru məktəbdə bullinq qurban olmağa çox təsir edir. İrqi azlıqdan olan uşaqlar məktəbdə özlərini yalnız və narahat hiss edirlər (Bellmore et al. 2004). Həmçinin məktəbin ölçüsü belə bullinq qurbanı olma ehtimalına təsir edə bilir. Beləki, böyük məktəblərdəki uşaqlar daha çox bullinqə məruz qalırlar nəinki,kiçik məktəblərdə olanlar (Bowes et al.2009). Qurbanlarin ikidə biri ya passiv yada itaətkar, üçdə biri isə aqressiv olurlar (Brockenbrough et al., 2002). Fiziki olaraq, bullinq edənlərlə müqayisədə qurbanlar balaca və zəif olurlar və bu səbəbdən özlərini qoruya bilmirlər. Onlar həmçinin idman və digər fiziki məşqlərdə zəif olurlar (Olweus, 1993). Kimsə onlara hücum etdikdə isə ağlayaraq, içinəqapanaraq reaksiya verir. Onlarda həmçinin problem həlletmə və kommunikasiya bacarığı zəif olur. Qurbanlar sakit, ehtiyatlı, narahat, özgüvənsiz və həssas olurlar. Onlar daimi olaraq tək qalır, hərhansı bir söhbətə başaya bilmir və çox az dosta sahibdirlər. Həmçinin həmyaşıdlar yerənə müəllim və valideynlərinə öz problemlərini anlatmağa meyillidirlər (Olweus, 1993). Onlarda özünəhörmət hissi çox az olur (O’Moore və Kirkham, 2001). Özlərini cazibədar olmayan, intellektual olmayan və önəmsiz görürlər. Bullinq qurbanları bullinqə məruz qalmasının əsas səbəbi kimihesab edirlər (Carney və Merrell, 2001). Bullinq qurbanlarının ailəsi daimi olaraq onlar üçün qoruyucu rol oynayır və tədqiqatçılar hesab edir ki, bu həm bullinqin səbəbi kimivə nəticəsi ola bilər (Olweus, 1993). Bəzi valideynlər uşaqların sosial boşluqlarını doldurmaq üçün özləri onlarla çox vaxt keçirirlər.

## 1.2 Bullinqin təsirləri

### 1.2.1 Bullinq edənlər üçün təsirlər

Bullinq edənlər bir çox mental problemler yaşayırlar. Bir tədqiqat ortaya çıxarıb ki, bullinq edənlərin üçdə birində diqqət çatışmazlığı, 12.5%-ində depressiya vardır (Kumpulainen, Rasanen, və Puura,2001). Həmçinin bullinq edənlərdə şəxsiyyət pozuntuları məsələn,aqressiyaya müsbət münasibət vardır ( Olweus, 1993). Onlar qurbanlardan daha çox, tez-tez həddən artıq içki içmək və narkotik maddə istifadə edirlər . Tədqiqat göstərir ki, bullinq edənlər öz problərini xaricə vurur və hiperaktivdirlər (Kumpulainen və Rasanen, 2000). Son olaraq,bullinq edən olmaq yetişkinlikdə

antisosialliğa gətirib çıxarır ( Olweus,1993). NSSC-yə görə bullinq edənlər məktəbdəki uğursuzluqlardan dolayı gələcəkdə iş mühitində zəif pozisiyada olurlar (Carney və Merrell, 2001). Əlavə olaraq, 30 yaşına kimi bullinq edənlər daha çox cinayət törətməyə və traffikdə pozuntulara meyilli olur (Roberts, 2000). 1991-ci ildə həyata keçirilən bir tədqiqat bildirir ki, 6-9-cu siniflərdə zorakılıq kimi müəyyənləşən hərəkətləri edən oğlanların 60%-i 24 və 35 yaşları arasında ən azı bir cinayət məsuliyyətinə cəlb olunub; Onların 40 %-i bu vaxta qədər ən az üç və ya daha çox məhkumluğu var ( Olweus, 1993). Bu tipli yetişkinlər həmdə öz həyat yoldaşlarına qarşı aqressiv davranır və uşaqlarına fiziki cəza verməyə meyili olur (Roberts, 2000). Araşdırma göstərir ki,bullinq edənlərin uşaqları da gələcəkdə bullinq edən olurlar (Carney və Merrell; 2001).

### 1.2.2 Bullinq qurbanına təsirlər

Bullinq qurbanları özlərini qovulmuş və uğursuz olaraq görürlər. Bullinq qurbanları olma bəzi daxili pozğunluqlara məsələn, depressiyaya,narahatlığa səbəb olur (Brockenbrough et al., 2002). Daxili pozğunluqlarla qurban olma arasındakı link xüsusilədə gənc qızlarda yeməkyemek pozuntusuna səbəb olur (Bond, Carlin, Thomas, Rubin,və Patton, 2001). Həmçinin qurbanlarda da diqqət çatışmazlığı vardır (Kumpulainen et al., 2001).

## 1.3 Bullinqin kateqoriyaları

### 1.3.1 Birbaşa bullinq

Birbaşa bullinq əsasən fiziki və verbal olur. Birbaşa bullinq adətən fiziki zərərlə nəticələnir və itələmək, vurmaq, təpikləmək, dürtmək və s kimi halları özündə birləşdirir. Bu açıq, müşahidə oluna bilənən və asanlıqla həm gənclər həm də yetişkinlər arasında görülən bir bullinq növüdür. Amma geniş yayılan hesab edilmir (Orpinas və Horne, 2006). Birbaşa olan bullinqə həmdə ad qoşmaq, təhqir etmək, alçaltmaq və utandırmaq da aididir. Birbaşa fiziki bullinq və oyun sırasında yaranan fiziki zorakılık ayırd edilməlidir. Oyun zamanı əsasən uşaq öz üz ifadələrini dəyişir və ya iştirakçılar bilərəkdən burada iştirak edirlər və hərhansı fiziki kontak bilərəkdən edilmir. Amma bullinq halında isə bu qəsdən törədilir və oyun oynamaq yerinə qəsdən edilir (Roberta Heydenberk və Warren Heydenberk, 2006).

### 1.3.2 Dolayı bullinq

Dolayı bullinq isə münasibət əsaslı və psixoloji olur. Buraya şayiə yayılması, kimisə qrupdan ayırmaq və s aiddir (Baldry,2010). Bullinq törədən qızlar əsasən dolayı olan bullinqlə məşğul olurlar. Dolayı bullinq münasibət əsaslı aqressiyanin bir növüdür və əsas göstəricisi qurbanı nəzarət altında saxlamaq və ona zərər verməkdir. Dolayı yolla olan bullinq həmdə kiber aləmdə də özünü göstərir və kiberbullinq adlandırmaq mümükündür. Kiberbullinqin əksər növləri

dolayı yolla olsada, bəzi hallar xüsusilə qabaqcadan müəyyən edilmiş məxsə tərəf yönəlirsə artıq birbaşa hesab edilir (Roberta Heydenberk və Warren Heydenberk, 2003).

### 1.3.3 Cinsi Bullinq

Cinsi bullinq nəzəriyyələri Amerikada 1970-ci illərin əvvvələrində MacKinnonun bu prossesi kişilərin qadınları boyun əydirmək və özlərinə tabe etmək məqsədilə ilə tətbiq etdiyi bir ayrıseçkilik kimi müəyyən etdi (MacKinnon 1979). Bullinq normalda uyumlu olmayan və ya təcavüzkar şəxslər arasında baş verən bir hal olsada, cinsi bullinq qadınların cinsi istismara məcbur etmək üçün edilən kişi davranışı kimi müəyyənləşmişdir (Oncale v. Sundowners 1998). ABŞ Təhsil Nazirliyi cinsi bullinqin tərifini düşməncə, davamlı, şiddətli və istənməyən şəxslərarası davranış (cinsi təmas və s.) kimi açıqlamışdır (U.S. Department of Education 1997, p. 12038). Cinsi bullinq əsasən birbaşa fiziki bullinqin (toxunmaq, təzyiq göstərmək, tutmaq və s) münasibət əsaslı aqressiyanın (qurban haqqında şayiə yaymaq) və birbaşa psixoloji bullinqin (qurbanın hərhansı bir şəklinin gizlicə çəkilib cinsəl istismara uğratmaq, onun cinsi oriyentasiyasını lağa qoymaq) birləşməsidir. Qadınlar və bəzi cinsi azlıqlar daha çox cinsi bullinqə məruz qalırlar. İlk olaraq bullinq leqal deyil amma cinsi təcavüz leqal hesab edilir. Bu səbəbdən bu halla rastlaşanlar məktəb rəhbərliyi ilə bunu paylaşmır və haqlarının qorunmasını tələb edə bilmirlər. Həmçinin cinsi bullinq bullinqin bir növü hesab edildiyindən xüsusi bir təcavüz halı kimi hesab edilmir. Bəzi tədqiqatçılar məktəbdə baş verən cinsi bullinqi ənənəvi bulinqin yeniyetməlik forması kimi müəyyənləşdirmişdir (Craig et al. 1997;). Fakta əsasən bullinq edənlərin əksəriyyəti kişi olduğu üçün cinsi bullinqdən əziyyət çəkən qadınlardır və cinsi kommentlər edərək onlardan daha üstün olduqlarını nümayiş etdirmək istəyirlər (AAUW 2001; McGuffey and Rich 1999; Kimmel and Mahler 2003). Təxmininənn məktəblilərin 40% -i bu hallarla rastalşmışdır (Gruber və Fineran, 2007). Yetişkinlərə gəldikdə isə işyerində 58% qadınların kişilər tərəfindən cinsi bullinqə məruz qaldıqlarını bildirmişdir (Schneider, Pryor, və Fitzgerald, 2010). Məktəblilər məktəb mühitndə xoşagəlməz və istənməyən bəzi cinsi bullinqə məruz qalırlar. Bunlara cinsi kommentariyalar, zarfatlar, hərəkətlər, şayiə və baxışlar, cinsi məzmunlu şəkillərin göstərilməsi,sanotariya qovşağındakı cinsiyyət məzmunlu şəkillər və yazılar, gey və ya lezbiyan deyə ad qoşmaq və s aiddir.(AAUW, 1993, 2001). AAWW(1993,2001) araşdırmasına görə cinsəl istismara və ya bullinqə uğrayan məktəblilərdə bəzi neqativ psixoloji effektlər özünün göstərir və buraya iştahsızlıq, depressiya, kabus görmək və yuxusuzluq, utanc hissi və s. aiddir (Hand vəSanchez, 2000; Lee et al., 1996). Dunkan (1999) 7 ci sinif şagirdi oğlanların cinsi inkişafla əlaqəli olaraq yetərsizliklərindən dolayı qızlar və oğlanlar tərəfindən alçaldılmış hiss edir. Bu səbəbdən dolayi "gey" adlandırılır və məktəbi bu səbəblərdən dolayı buraxmalı olur. Cinsi bullinq həmçinin qadın

müəllimlər arasında da görülür.Müəllimlərin 20%-i bu hallarla qarşılaşdıqlarını və iş yoldaşları, menecerler, valideyn və ya şagirdlər tərəfindən cinsi bullinqə məruz qaldıqlarını bildirmişlər (NASUWT 2017). Ənənəvi bullinq qurbanları kimi cinsi istismara məruz qalanlarda da akademik uğursuzluq, məktəbdən çıxma və ya gəlməmək, ailə və dostlarla münasibətlərin kəsilməsi halları da görünür.(AAUW, 1993, 2001; Corbett, Gentry, and Pearson, 1993;Hand and Sanchez, 2000; Lee et al., 1996; Loredo, Reid 2004; PCSW, 1995;Roscoe, Strouse, and Goodwin, 1994; Shakeshaft et al., 1995; Stein, Marshall və Tropp, 1993;Stratton and Backes, 1997; Trigg and Wittenstrom, 1996).

### 1.4 Məktəblərdə mobbinq

"Mobbing" termini ingilis sözüdür və ilk dəfə 19-cu əsrdə yuvalarını düşməndən qorumaq üçün yuvanın ətrafında uçan quşların davranışını təsvir etmək məqsədilə bioloqlar tərəfindən istifadə edilmişdir (WHO, 2002). İş yerində baş verən bullinq əsasən kiberbullinq, cinsi bullinq, dolayı olan bullinq metodları məsələn şayiə və ya bilərəkdən pisləməkdir. İşyerində bullinq davamlı və neqativ olan davranışların qurbana yönəlməsi və mənfi mühit yaratmasıdır (Salin, 2001 pp.425). Bu səbəblə, işyerində ki bullinq ümümilikdə bir-birindən ayrı olan hərəkətlərdən daha çox getdikcə yüksələn və davamlı hal alan müxtəlif davranışların formalaşmasıdır və buna müddət faktoru da daxildir (Einarsen et al., 1999). Eyni gücə sahib olan qruplar arasında hərhansı bir münaqişə bullinq hesab edilmir (Einarsen, 1999). Həmçinin buraya aiddir:

1. Bullinq qurbanları lazımsız və edilməsi hardasa mümükün olmayan tapşırıqlarla yükləmək

2. Bullinq qurbanlarını təhdid etmək

3. Önəmli iş proyektlərinə bullinq qurbanlarını çağırmamaq və ya ən sonda məlumat vermək

4. Bullinq qurbanlarının etdiyi önəmli işləri və töhfələri əhəmiyyətsiz hala gətirmək və ya bu işi özü etmiş kimi göstərmək (Mistry və Latoo, 2009; Einarsen et al., 1999).

#### 1.4.1 Megaloman mobbinqçilər

Bu şəxslər özgüvəniolmadığı üçün daima içlərində qısqanclıq, nifrət və kin olan fərdlərdir və bunu daima birilərinə yansıdır və bü şəkildə rahatlıq tapırlar (Tınaz, 2006).

Mobbinqin psixoloji nəticələri əsasən 3 yerə bölünür.

| **Mobbinqin psixoloji nəticələri** | |
|---|---|
| **İqtisadi nəticələr** | 1. Ruhi və fiziki sağlamlığın müayinəsi üçün edilən müalicə xərcləri<br>2. İşin ititilməsi səbəbiylə daimi maaşın ititilməsi |
| **Sosial nəticələr:** | 1. Sosial statusun zədələnməsi |

| | |
|---|---|
| | 2. Depressiya səbəbiylə dostlar tərəfindən tərk edilmə |
| **Ruhi və Fiziki nəticələr** | 1. Depressiya<br>2. Yüksək təzyiq<br>3. Baş və bel ağrıları<br>4. Mədə ağrıları (Tınaz,2006) |

1.2 Cədvəl 2 Mobbinqin psixoloji nəticələri

### 1.5 Bullinq nəzəriyyələri

#### 1.5.1 Atribut nəzəriyyəsi

Bullinq edənlərə, bullinq qurbanlarına və müşahidəçilərə təsir edə biləcək sosial və psixoloji dinamakiya aid anlayışları özündə cəmləndirən bir neçə nəzəriyyə vardır. Bunlara Atribut nəzəriyyəsi, Dominantlıq nəzəriyyəsi və Ekoloji nəzəriyyə və Sosial sərmaye nəzəriyyəsi daxildir. Hər bir nəzəriyyə öz prizmasından problemə yanaşır. Atribut nəzəriyyəsi insanların etdikləri davranışları açıqlamağı və qəbul etmək üçün istifadə etdikləri strategiyalara diqqət edir. Robert və Jastin nümunəsindən atribut nəzəriyyəsini açıqlamaq olar. Məsələn, Rober və Jastin məktəbdən dostdur. Robert şiddətli yağış yağdığı üçün Jastinin yeni jaketini istəyir. Növbəti gün Robert dərsə gəlmir. Əgər Jastin yaxşı niyyətlidirsə Robertin xəstə olduğunu və bu səbəbdən gəlmədiyini təöxmin edə bilər. Amma əgər bu belə deyilsə, yəni ona düşməncə mənfi bir atribut yükləyirsə o zaman Robertin bilərəkdən jaketi qaytarmamaq üçün gəlmədiyi fikrini irəli sürəcəkdir ( Heydenberk və Heyderberk, 2006). Bullinq edənlər adətən bu aqressiv davranışı niyə etdiklərini və ya necə qurban seçdiklərini açıqlayanda onlara düşmənçiliklə bağlı qərəz yükləyirlər (Orpinas və Horne, 2006, s. 61). Əlavə olaraq, bullinq edənlər bunu niyə etdiklərini soruşduqda onlar bilərəkdən aqressiv və düşməncə olan xatirələri və ya işarətləri xatırlamağa çalışırlar. Düşməncə olan atribusiyalar dost mərkəzli olamayan düşmən mühitində yarana bilər. Məsələn, pis rəftara və münasibətə məruz qalanlar adətən başqalarının onlara qarşı soyuq olmasını gözləyir ( Harris, 2006). Həmyaşıdlar arasında olan bullinq və qurban olma hallarının yaranmasına səbəb əxlaqı əlaqənin pozulması da ola bilər (De Castro, Veerman, Koops, Bosch və Monshouwer, 2002). Nəticə olaraq, empatiya hissi olmayan insan (bullinq edən) və özünəməxsus və qarşıtərəfə yönəlik olan rasional attributlardan dolayı özlərini bu aqressiv davranışı etməkdə haqlı görə bilərlər. Pis davranış və aqressiya arasında ciddi bir əlaqə vardır (De Castro et al., 2002). Pis rəftar həmçinin münasibət əsaslı əlaqədə hansı tip bullinqin olacağını təxmin edə bilir (Godleski, Astrov, Houston, vəSchlienz, 2010). Qəti olmayan, yəni daimi dəyişkən hal alan özünəhörmət duyğusu, düşməncə rəftar və zəif sosial yetərlilik (emosional idarənin zəif olması, əsəb partlayışlarını idarə edə bilməmək və s.) digərlərinə bullinq etməyə dəvət edir ( Einarsen, 1999). Atribut nəzəriyyəsinə görə bir davranışı edən müşahidəçi müəyyən bir səbəb-nəticə əlaqəsindən dolayı bunu edir (Kelley və Michela, 1980). Thibaut və Rieken (1995) etdikləri araşdırma bu nəzəriyyəni test etmişdir və

onlar eksperimentin əsas subyektlərini yüksək və aşağı təbəqədən olmaqla iki qrupa arasında əlaqələndirmişdir. Təcrübə vaxtı, subyekt hər iki qrupdan olan bir nəfərdən kömək istəmişdir və onların daxili yoxsa xarici səbəblərrdən yardım etdiyi öyrənilməyə çalışılmışdır. Nəticədə, yüksək statuslu şəxslər daxili səbəbləri, aşağı statuslu olanlar isə daxili səbəbləri yardım etmək üçün əsas olaraq göstərdi. Tədqiqat göstərdiki,əgər fərd real olan və müşahidə edilən situasiyaya uyğun atribut yaratmağa meyli varsa, bu tip davranış gələcəkdə fərdə cəmiyyətdə funksional və adaptiv olmağa yardımcı olacaqdır. Amma qeyri-real və uyğun olmayan davranış əsaslı atribut yaradırsa bu o zaman adaptiv və funksional olmayan bir fərd olmağa gətirib çıxaracaqdır . Məsələn, əgər bir şagird imtahandan kəsilirsə bunu doğru olan atributlarla əlaqələndirsə (dərsə yaxşı hazırlaşmamaq və s.) bu ona gələcəkdə daha yaxşı hazırlaşmaqla imtahandan keçməyi məqsəd qoyacaqdır və adaptiv və funksional baxış mövqeyinə sahib olacaqdır. Digər tərəfdən,kəsildiyi üçün qeyri-real atribut yaradırsa məsələn,ədalətsiz imtahan olması və ya hərhansı bir səbəb hansıkı fərdlə bağlı deyil, o zaman o gələcəkdədə bunu bəhanə edib uğursuz olacaqdır (Christopher James Bushard, 2013). Səbəb-nəticə atributlarını öyrənərkən motivasiya edilmiş davranışın yəni hərərkətə keçirilmiş davranışın şəxslərarasımı yoxsa şəxsdaxili mi olduğu fərqləndirilir (Weiner, 1980). Atribut nəzəriyyəsinin şəxsiyyətdaxili modelinə əsasən bir hadisə baş verərkən fərd əgər niyə? sualını verirsə deməli o olanları özü ilə əlaqələndirir. Məslən bir iş yerindən qovularkən bunun öz yetərsizliyi ilə bağlaya bilər. Belə olduğu halda həmin fərddə özünəinam və özünəhörmət azalır (Weiner, 1980). Üç dəyişkən vardır ki, bir-biri ilə əlaqəli davranışları və müşahidəçinin sonrakı davranışını izah etmək üçün Weiner (1980) tərəfindən irəli sürülmüşdür. Bunlar atribusiya əsaslı hadisə təhlili, atribusiya təhlilinə əsaslanan növbəti davranışa bağlı olan reaksiya, mümkün ola biləcək davranış əsaslı cavabdır. Emosional cavaba simpatiya və ya qəzəb, davranış əsaslı cavaba və ya reaksiyaya aqressiya və ya yardım etmək aid edilir. Sabitlik, idarə edilə bilmə və yerləşmə anlayışları müəyyən edilmiş səbəb əlaqəsinin əsas kompenentləridir (Weiner, 1980). Yerləşmə anlayışı hadisənin baş verdiyi yerə istinad edir hansıkı həm daxili həm də xarici ola bilər.

### 1.5.2 Dominantlıq nəzəriyyəsi

Sosial dominantlıq və dominantlıq nəzəriyyələri yaxından əlaqəlidir. Amma sosial dominantlıq nəzəriyyəsi sosial iyerarxiyaya fokuslanır, dominantlıq isə əsasə fərdi xüsusiyyətlərdən yola çıxaraq araşdırma edir. SDT əsasən cəmiyyətdəki sosial qrupları cinsiyyət (kişilərin qadından daha çox güc sahibi olması), yaş (yetişkinlərin uşaqlardan daha güclü olması) baxımından tədqiq edir (Sidanius və Pratto, 1999). Qrup əsaslı sosial iyerarxiya əsasən ayrıseçkilik, basqı və ədalətsizlik vasitəsilə yaranır. Dominant qruplar daha zəif qrupa təzyiq göstərərək iyerarxiya yaradır. Dominant qrup əsasən qeyri-bərabər miqdarda sosial dəyərlərə, maddi dəyərlərə sahibdir. Dominantlıq əsasən qrupa yeni bir üzv daxil olduqda və ya yeni qrup

yaradıldıqda qrup üzvləri arasında baş verir (Pellegrini, 2003). Dominantlıq yarandıqdan sonra qrup üzləri arasında sabitlik özünü göstərir. Dominantlıq nəzəriyyəsinə görə, bullinq aqressiv bir davranışdır və əsas məqsəd qurban olacaq şəxs üzərində üstünlük yaratmaqdır (Pellegrini,2003). Oğlanlar əsasən dominatlıq əsaslı bullinq etməklə qızlara daha cazibəli gələyə çalışırlar və həmcinsləri arasında daha çox dəyərli olurlar (Pellegrini,2003). Dominantlıq nəzəriyyəsinə görə dominantlıq ya antaqonist məslən bullinq vasitəsilə, ya da mənsbiyyət və ya bağlılıqdan məsələn,dostluq vasitəsilə əldə edilə bilər (Swearer et al., 2010, p. 18). Sosial keçid zamanı sosial dominantlıq yarana bilər. Məsələn məktəbəqədər müəssisədən ibtidai sinifə keçərkən bu halla rastlaşmaq olar. Bu zaman yeni sosial sıra yaranır (Swearer et al., 2010, p. 19). Məsələn kiçik bir bölgədə yerləşən məktəbdən böyük bir ərazidə və ya şəhərdə yerləşən məktəb keçid zamanı bullinq yarana bilər (Swearer et al., 2009). Sosial dominantlıq oriyentasiyası qruplararası bərabərsizliyə hansı dərəcədə üstünlük verməklə bağlı xüsusi bir şəxsiyyət xüsusiyyətidir ( Sidanius, Stallworth, və Malle, 1999, p. 741). Sosial dominatlıq nəzəriyyəsinə görə fərdlərin sosial qruplar arasındakı bərabərsizliyə inanmasının altında bir mexanizm vardır. Sidanius (1999) görə cəmiyyət sosial bərabərsizliyi qanuniləşdirmək məqsədiylə ideologiyalar yaradır. Sosial dominantlıq nəzəriyyəsini ələ alaraq gələcəkdə hansı uşaqların bullinq qurbanı olacağını təxmin edə bilər.

### 1.5.3 Ekologiya nəzəriyyəsi

Ekologiya nəzəriyyəsi ekoloji bir sistem içində fərdin ətrafının bütün kompenentlərinin inkişafına qarşılıqlı, sinergik töhfələr barədə fikir anlayışını təmin edir. Ekologiya nəzəriyyəsi bullinqin baş verib verməyəcəyini fərdin müxtəlif faktorların təsiri baxış bucaqından açıqlayır (Orpinas və Horne, 2006, p. 75). Bu nəzəriyyə özündə bir neçə modeli birləşdirib əlaqələndirərək bullinqin niyə baş verdiyini və  daha sağlam bir şəxsiyyət olmaq üçün nə etməli olduğunu izah edir (Germain və Gitterman, 1996). Buraya sosial, psixoloji, mədəniyyətlərarası, cəmiyyət  və ailə əsaslı hətta kiber aləmlə bağlı modellərin hamsı ekologiya nəzəriyyəsi daxilində analiz edilir (Johnson, 2010). Ekoloji nəzəriyyəyə əsasən bullinq sosial məzmun daxilində əsasən həmyaşıdlar arasında, sinif mühitində, ailədə, məktəbdə və daha geniş icmada baş verir. Bütün bunlar və onlar arasındakı qarşılıqlı əlaqə fərdin inkişafı və xarakteri həmçinin bullinq edən və qurban olanla münasibətləri nəzərə almalıdır ( Craig , 1997). İnteraksiya əsasən fərdin  şagird və həmyaşıd, şagird və müəllim, müəllim və valideyn, uşaq və valideyn arasında formalaşn inkişafın alt sistemi kimi başa düşülür (Bronfenbrenner, 1979; Sontag, 1996). Bronfenbrenner (1979) qeyd edir ki, fərdin ekoloji mühiti bir-biri ilə əlaqələnmiş və bir-birinin içində, sanki rus kuklası kimidir. Alt sistemlər mikrosistemlərdən başlayaraq (individual münasibətlər) mezosistemə (uşaq , məktəb və ailə) və oradan da eksosistemə (validyenlərin işyeri) və son olaraq makrosistemə (sosial sistem və mədəniyyətlər) qədər uzanır (Benbenishty və Astor, 2005; Bronfenbrenner, 1979; Sontag, 2005).

### 1.5.4 Sosial sərmayə nəzəriyyəsi

Sosial sərmaye sosial münasibətlərdən əldə edilən faydalardır (Putnam, 2000). Xüsusilədə öz məqsədlərini gerçəkləşdirmək və xeyir əldə etmək məqsədi güdən fərdlər digərləri ilə münasibətdə sosial mühit yaradır və ya invetsisiya yəni, yatırım edir (Coleman, 1988; Lin, 2001). Putnam (2000) qeyd edir ki , qarşılıqlı sosial sərmaye sosial münasibətlərdəki əlaqəni saxlamağa motivasiya edir.Sosial sərmayə ya konstruktiv yada münasibət əsaslı olur. Münasibət əsaslı olan sosial sərmayə sosial bağlardan (şəxslərarası münasibətlər) hansıkı oxşar xüsusiyyətlərə sahib olan insanlar arasında yaranır. Konstruktiv sosial sərmaye isə homogen olmayan qrupun xaricində olan fərdlər arasında qurulur (Beugelsdijk və Smulders, 2003; Putnam, 2000). Sosial sərmaye nəzəriyyəçiləri sosial bağların dörd faydalı resurs təklif etdiyini irəli sürür:

- *İlk olan üstünlük yalnızca qrupun daxilindəkilərin əldə edə biləcəyi hansıkı müəyyən imkanlar və seçimlər təqdim edən informasiyaya çatmaqdır. Yüksək statuslu şagirdlərlə əlaqə saxlamaq əsasən onların bullinq olma ehtimalını və ayrıseçkilik olma halını azalda və sosial münasibətləri düzgün saxlamağa yardımcı ola bilir.*
- *İkinci olaraq sosial cəhətdən güclü olanlarla əlaqə saxlamaq bir növ onların qərarlarına təsir etmək kimi bir üstünlük təklif edə bilər. Məsələn, bullinq edənin dostu olmaq həm bullinq olunmaqdan xilas edə bilər həm də digərlərinin ona bullinq etməsindən və nəticə olaraq qurban olmaqdan qoruya bilər.*
- *Üçüncü üstünlük isə fərdlərə sosial kimlik qazandırmaqdır hansıkı bunun vasitəsilə bir çox mənbələrə əlçatanlıq mümkün olur. Məsələn, populyar olan birinin hər hansı bir sosial cəhətdən üstün olan biri ilə yaxın və ya romantik əlaqəsinin olması,həmin şəxsdən dolayı sosial sərmayenin artmasına (hörmət qazanmaq və ya başqa yüksək təbəqədən olanlarla əlaqə) səbəb olur. Bu şəxslər bullinq yaşamaqdan da uzaq olurlar çünki münasibəti olan fərdlər öz partnyorları sayəsində qorunurlar.*
- *Dördüncü olaraq fərdin özünəhörmətini və sosial kimliyini artırır. (Lin, 2001;) (Caroline B. R. Evans, Paul R. Smokowski, 2000).*

## 1.6 Kiberbullinq

Kiberbullinq adətən orta məktəbdə baş verən problem kimi səciyyələnir. Heç bir şübhə yoxdur ki, onlayn aqressiya azyaşlılar arasında problemdir. Məsələn ABŞ-da milli miqyasda təmsil edilən nümünələrdən yola çıxaraq Cinayətlə Mübarizə üzrə telefon sorğusu müəyyən etdiki azyaşlılar orta məktəbdə oxuyan şagirdlərə nisbətən daha çox kiberbullinqlə qarşılaşır (Hymel & Swearer, 2010). Kiberbullinq telefon, kompyuter və digər bütün elektron cihazların vasitəsilə bir şəxsə qarşı

olan qəsdi olaraq zərər verəcək hərəkətlərdir (Hinduja & Patchin, 2010). Kiberbullinq bir fərd və ya qrup tərəfindən aqressiv və qəsdi hərərkətlərin təkrarlanaraq baş verməsi qurbanın özünü müdafiə edə bilməməsi ilə səciyyələnir (Smith et al., 2008, p. 376). Ənənəvi bullinqlə müqayisədə kiberbullinq xüsusi xarakteristikaları vardır. Məsələn burada bullinq edən anonimliyə malikdir, məkan və zaman limiti yoxdur (Juvonen, 2013). Ybarra və həmkarları (2007) müəyyən etmişdir ki, internet üzərində qurban olanlar digər tələbələrlə müqayisədə daha 8 dəfə daha çox silah gəzdirməyə meyillidirlər. Həmçinin kiberbullinqin bəzi növləri digərlərinə nisbətən daha zərəridir. Məsələn, Smith və həmkarları (2008) müəyyən etdi ki, gənclər əsasən şəkil və ya video kliplərindən daha narhat olurlar çünki onlar qısa zamanda geniş kütləyə çata bilər. Ümumilikdə kiberbullinqə təcavüz etmək, təhdid etmək (e-poçt və ya mətn tipli mesajla), sosial mediada və ya veb saytlarda kimsə haqqında alçaldıcı şərhlər yerləşdirmək və ya sosial platformada kimisə fiziki təhdid etmək və ya qorxutmaq daxildir (Burgess-Proctor; Lenhart, 2007; Li, 2007b). Kiberbullinq sosial mediada və ya onlayn oyun zamanı, mobil telefonla şəkil və ya videoların paylaşılmasıdır. Bu tipli hücümlar adətən şayiə yaymaq, sosial xaricetmə (həmyaşıdları blok etmək və ya hərhansı bir populyar bloq və ya qrupda bir şey paylaşmaqdan məhrum etmək), qurbanın şəkillərini çat otaqlarında yayçmaq və cinsi obyektə çevirmək, onun adressini vermək və s kimi fərqlənir. Yetkinləşmə yaşında olanlarda kiberbullinq hallarının görülmə halı 6 % və 46 % arasında dəyişir ( Beran və Li, 2005). Araşdırmalar göstərir ki müxtəlif insanlar bullinq kəliməsini fərli anlayır. Bir araşdırmada müəllimlər, valideynlər və şağirdlər bullinqi davadan fərqləndirən şeyin güc balansızlığı olduğunu bildirsələrdə burada heç biri təkrarlanmadan bəhs etmədi. Valideynlər bullinq edən uşaqlarının tərəfini tuturlar çünki onlar iddia edir ki bunu edərkən onlar zərər vurduqlarını başa düşmürlər. Müəllimlər isə iddia edir ki,uşaqlar zərər vurduqlarını bilirlər (Compton et al., 2014). Daha azyaşlı uşaqlarla böyük uşaqların bullinq anlayışı fərqlidir (Smith,2008). Həmçinin mxtəlif mədəniyyətlərin bu anlayışı interpretasiya etmək şəkillərıdə fərqidir (Jacobson, Hood, və van Buren, 2014). Kiberbullinq zamanı bəzi qurban olunacaqların onlayn hesablarının şifrəsi ələ keçirilir və onların heç vaxt göndərməyəcəyi mesajları göndərirlər. Nəticədə qurban utandırırlır və özünü bunu göndərmədiyini sübüt etməyə çalışırlar. Qurban adətən bütün bunları kimsə onlara dedikdə və bir neçə nəfər gördükdən sonra bilirlər. Tələbələr üçün ən çətin olan zorakılıq halı isə cinsiyyətlə bağlı olanlardır (Bauman və Newman,2013). Kiberbullinqə uğrayan uşaqlarda sosial problemlər, depressiya və narahatlıq (Campbell et al., 2014.), maddə qəbulu ( Ybarra, 2007) və azalmış özünəhörmət halları görünür (Chang et al., 2013). Həmçinin yüksək miqdarda stress simptomları (Cross et al.,2009), agressiya və qayda pozmaq kimi hallar görünür (Ybarra və Mitchell, 2007). Ənənəvi bullinqlə nisbətdə bu kimi hallar kiberbullinq zamanı daha çox və intensiv olur . Kiberbullinq həmşinin intihar düşüncəsi, planları və cəhdlərinə də yol açır (Bonanno və Hymel, 2013; Klomek, Sourander, və Gould, 2011). Suler (2004) onlayn

disinhibisyon zamanı insanlarin ekran arxasında olanda vəhərhansı bir sosial konvennsiyalara məhəl qoymadıqlarını müəyyən etdi. Bu hal onu iddia edir ki,onlayn bullinq hallarının daha insafsız olmasının səbəbi kimibudur. Bullinq edənlər kiberbullinq zamanı bu sözləri real həyatda heç vaxt deyə bilmirlər. Kiberbullinq edən şəxslər aşkarda ola bilər və ya olmaya bilər. Kiberbullinq edən şəxs və ya şəxslərin kimliyinin bilinməməsi, bu tipli neqatif hal sayının artmasına səbəb olur (Aslan, Doğan, 2017).

### 16.1 Kiberbullinqin növləri

Peker (2015) araşdırmasında müəyyən etdi ki,kiberbullinq ən çox yetkinlik yaşında olan uşaqlar arasında müşahidə edilir. Kiberbullinq bir neçə şəkildə özünü göstərir (Kowalski, Limber və Agatson ,2008)

| **Kiberbullinqin növləri** | |
|---|---|
| **Kimisə impersonasiya etmək** | Kiberbullinq edən qurbana aid olan şəkilləri onun adndan paylaşır və mətn tipli mesajlar göndərir. |
| **Provakasiya** | Sosial media üzərindən bullinq edən qurbana qarşı mənfi,pis rəylər yazır və qarşı tərəf cavab verməzsə bu hal daha da artır. |
| **Təcavüz** | Bullinq edən sosial media vasitələrindən istifadə edərək daimi olaraq qurbanı narahat edəcək təhqiredici şəkillər yayır. |
| **Böhtan** | Bullinq edən kiminsə reputasiyasınına zərər vermək üçün saxta məlumatlar yayır və başqalarını da inandırır. |
| **Alovlandırma** | Hər hansı bir ictimai kiber platformada, məsələn Facebook `dakı çat otaqlarında tənqid və təhdidlərin mübadiləsidir. |
| **Deniqrasiya** | Qurbanın nalayiq şəkillərinin yerləşdirilməsi və bu səbəbdən böhtan atılaraq dəstəklənildiyi bir durumdur. |
| **Yayılma** | Bir qurban haqqında hərhansı şəxsi informasiyanınh ondan icazəsiz şəkildə yayılma halıdır. |
| **Kiberostracizm** | Qurbanın sosial media üzərində ki dostluqlarından kənarlaşdırılması |
| **“Xoşbəxt şillə”** | Bu halda bir qurbana qarşı qrup halında hücum edilir və bu hal videoya çəkilərək paylaşılır. |

1.3 Cədvəl 3 Kiberbullinqin növləri

### 1.6.2 Kiberbullinq qurbanı olan uşaq

Sameer Hinduja və Justin W. Patchin (2010) kiberbullinq edən və kiberbullinq qurbanı olan uşaqlara aid bir sıra siqnalları müəyyən etmişdir.

*-Çox yata bilər və ya yetərsiz yuxuya sahib ola bilər*

*-Birdən birə elektrn cihazlardan istifadəni dayandıra bilər*

*-Elektron cihazlardan istifadə edərkən narahat və ya stressli ola bilər*

*-Məktəbə gedərkən və ya ümumiyyətlə evdən kənara çıxanda narahat ola bilər*

*-Onlayn oyunlardan sonra depressiv,əsəbi görünə bilər*

*-Ailə üzvlərindən və dostlarından anormal şəkildə uzaqlaşa bilər*

*-Yemək yemək zamanı ya həddindən çox ya da olduqca az qidalana bilər*

*-Daimi olaraq depressiya halındadırsa*

*-Onlayn olduqları zaman etdiklərini danışmaqda könülsüzdürsə*

*-Onlara ən çox maraqlı olan şeylərə qarşı həvəssizlik göstərmək*

*-Həyat haqqında pessimist ola biəör və intihar haqqınd fikirlər söyləyə bilər*

### 1.6.3 Kiberbullinq edən uşaqdakı əlamətlər

*-Kimsə gəldikdə kompyuter ekranını və ya elektron cihazın monitorunu gizlətmək*

*-Bütün gecə elektron cihazdan istifadə etmək*

*-Cihazdan istifadə edə bilmədikdə dilxor olması*

*-Cihazdan istifadə edərkən gülməsi və gülməli olan hadisədən bəhs etməməsi*

*-Onlayn olarkən nə etdiyindən bəhs etməməsi*

*-Ailə üzvlərindən kənarlaşması*

*-Birdən çox onlayn profildən istifadə etməsi*

*-Məktəbdə disiplinə göndərilıməsi və davranışla bağlı problemlər göstərməsi*

*-Yalnış insanlarla vaxt keçirmək*

*-Müəyyən bir sosial statuis qazanmaq üçün populyarlığa asılılıq göstərmək*

*-Şiddətə meyillik*

### 1.6.4 Kiberbullinqin səbəbləri

*Apardığı tədqiqat nəticəsində Cordon(2017) kiberbullinqə təsir edən 7 əsas səbəb müəyyən etdi:*

1. ***İntiqam hissi***

*Bullinq edənlər qəzəb və intiqam hissindən azad olmaq üçün başqalarına bullinq edirlər və bu şəkildə özlərini müdafiə edirlər.Bu onu göstərir ki,bullinq edənlər də bir zamanlar bullinqə məruz qalıblar və bu hissi digərlərinə yaşatmaq istəyirlər.*

2. ***Onlar düşünür ki, bullinq olunan şəxs buna haqq qazanıb***

*Bullinq qısqanclıq və məktəbdəki qruplararası anlaşılmazlıqdan yaranır. Məsələn, bir qız şagird üstün gördüyü başqa bir qız rəqibini (hansıkı məktəbdə populyar hesab edilir) alçaldmaq üçün bu tipli davranışlar göstərə bilər və ən sonda onun buna haqq qazandığını iddia edə bilər. Onlar bunu edərkən plan qururlar və bir nəfəri hədəfləyirlər.*

3. ***Həmyaşıd təzyiqi***

*Məktəbdəki qruplar arasında populyarlıq qazanmaq məqsədilə uşaqlar qrupda deyilənləri etməyə meyillidirlər. Hətta onlar etdiklərinin pis olduğunun fərqinə varsalar belə qrupdan xaric olunmamaq və bullinqə uğramamaq məqsədilə bunu edə bilərlər.*

4. ***Onlar düşünür ki hər kəs bullinq edir***

*Bullinqə qarşı hərhansı bir müdaxilə olmadığı üçün onlar bullinqin normal olduğunu və hər kəsin bu prosessdə olduğunu hesab edirlər.*

5. ***Onlar düşünür ki, tutulmazlar***

*Bəzi uşaqlar ənənəvi bullinqdən daha çox kiberbullinqlə məşğul olurlar. Çünki internetdə olan zaman onların tanıpnma və tutulma ehtimalı çox zəifdir.*

6. ***Onların empatiya hissi yoxdur***

*Kiberbullinq edən uşaqlarda digərlərini anlamaq və ya onların yerinə özlərini qoymaq anlayışı yoxdur.*

### 1.7 Bullinqlə mübarizə üsulları

#### 1.7.1 Olweus metodu

Bullinqlə mübarizədə ən effektiv və geniş miqyasda tanınan proqramlardan biri Olweusun bullinqlə mübarizə proqramıdır (Olweus,1993). Bu proqram ibtidai və orta məktəb şagirdlərini əsas hədəf alır və tətbiqetmə üçün müəllimlər və məktəb heyyətinə inam bəsləyir. Bu proqram məktəb işçilərinə ciddi limitləri olan,optimal mühitlə xarakterizə edilən, yetişkin və müəllimlərin rol model olduğu ,qayda qanunların tətbiq olunduğu bir məktəb mühiti yaratmağa təşviq edir. İlkin olaraq bu proram Norveçdə tətbiq olunmuş və bullinqin raportlanması və qurban olma hallarında

əhəmiyyətli dərəcədə, 50%-ə qədər azalma olduğu müşahidə olundu (Olweus,1993). Həmçinin uşaqların antisosial davranışlarının raport edilməsində azalmalar və məktəbin sosial mühitində müsbət dəyişikliklər də baş vermişdir (Olweus,1993). Proqramın digər replikasiyaları (Smith,2008) müsbət nəticələrlə yekunlaşmışdır. Bullinqin azalması əhəmiyyətli olsa da, 16 faizdən 35 faizə qədər ensədə, bu nəticə orijinal tədqiqatdan əldə edilən tapılanlardan daha az idi.

**1.7.2 Biblioterapiya metodu**

Biblioterapiya metodu kitablardan istifadə etməklə insanların problemlərini həll etmə üsuludur. Daha spesifik olaraq isə biblioterapiya üsülü fasilitator və iştirakçı arasında qarşılıqlı ünsiyyət formalaşdırmadır (Pardeck ,1995). Biblioterapiya heçdə yeni terapiya metodu deyil əksinə bu metod məktəb işçilərinə mətin məsələləri diskussiya etmək üçün bir növ strategiyadır. Biblioterapiyanın işə yaraması üçün uşaq 3 mərhələdən keçməlidir: İdentifikasiya, Katarsis və Sezgi (Afolayan,1992).

**1.7.3 İdentifikasiya**

Çətin problemləri həll edərkən ilkin olaraq insanlar eyni problem yaşayanlarlı müəyyən etmək istəyirlər. Bu biblioterapiya üsülünün təməlidir. Uşaqlar biblioterapiyanın effektiv olması üçün ilkin olaraq kitabdakı onlarla eyni durumda olan uydurma personajları və vəziyyətləri müəyyən etməlidirlər. Ən önəmli mərhələ uşaqa uyğun kitabi tapıb uyğunlaşdırmaqdır (Sridhar və Vaughn, 2000, p. 75). Doğru kitabı seçmək uşaq üçün çox vacibdir çünki bu ondan xəbər verir ki uşaq əsas personaji və hadisəni müəyyən edə biləcəkdir. Kitab seçərkən personajların uşağla eyni yaşda olması, eyni hərəkətləri sərgiləməsi və eyni problemlərlə qarşılaşması vacibdir (Sridhar və Vaughn, 2000). Kitab həmçinin uşağın inkişafına uyğun leveldə olmalıdır (Pardeck, 1995).

**1.7.4 Katarsis**

Əgər uşaq artıq kitabdaki uydurma əsas personaji və öz problemini müəyyən edə bilmişsə o zaman onun həmin hekayəyə fokuslanması və emosional olaraq aktiv olması mümkün olacaqdır. Uşaqlar emosional olaraq aktiv olanda əsas personajla arasında bağ yaradır və bunu edərkən ədəbiyyatdan istifadə edərək hisslərini daha asan ifadə edir. Bu mərhələdə uşaqlar özlərini təhlükəsiz mühitdə ifadə etməyə cəsarətlənməlidirlər. Bu şəkildə uşaqlar verbal şəkildə özlərini inkişaf etdirərək rahatca ifadə edə bilərlər. Amma bəzi uşaqlar danışaraq hisslərindən bəhs etməkdən narhat olurlar. Əgər müsahibə üsulu ilə uşaq hisslərini anlata bilmirsə,onlara yazmaq təklif oluna bilər. Həmçinin kuklalarla rollu oyunlar, rəsm çəkmək, boyamaq da effektli ola bilər (Mcarty & Chalmers, 1997).

**1.7.5 Sezgi**

Biblioterapiya terapiyasının sonuncu mərhələsi sezgidir. Sezgi artıq uşağın kitabdaki personajların yaşadıqlarına reaksiya verməsi və statik vəziyyətdə qalmamasıdır (Sridhar və Vaughn, 2000, p. 75). Uşaq hekayeni müəyyənləşdirdikdən və emosiyaların katarsindən sonra o

fərqinə varır ki problemlər hekayədə olduğu kimi həll oluna bilər. Uşaqlar hekayədə ki mübarizə metodlarını mübarizə metodları kimi istifadə edə bilir və modelləşdirirlər. Fasilitatorlar bu metodlarlardan istifadə edərək alternativ davranışları kəşf edə  və tətbiq edə bilərlər.

**1.7.6 Rollu oyunlar**

Roberts və Course (1996) ya görə rollu oyunlar fərdləri sarsıdan və bezdirən üzləşmələrdən qorumaq üçün xüsusilə effektiv və faydalıdır. Rollu oyun uşaqları daha təhlükəsiz hiss etdirir çünki bu real həyatdan uzaq bir vəziyyətdir (Ross, 2002). Rollu oyunlar uşaqları diskussiyalarda iştirak etməyə cəsarətləndirir və onlara problemlərə alternativ çarələr tapmağa sövq edir. Dram uşaqlar başqasının baxış açısından probleme baxmasına yardımcı olur. Həmçinin drama yetişkin müdaxiləsi olmadan, rellığa yaxın olması səbəbiylə daha effektlidir. Adi bir səhnəcikdə müəllim bullinq edənin qurban rolunda olmağı və başqa bir tələbəni isə bullinq edən kimi davranmasını istəyir. Bullinq edənin qurban rolnda çıxış etməsi onun qurbana qarşı empatiya yaratmasına və qurban olmağın necə bir təcrübə olmasını öyrədir.

**1.7.7 Kiberbullinqlə mübarizə**

Məktəbdəki administratorlar məktəbdə optimal mühit yaratmaq və bütün tələbələrin qorxudan və hədədən uzaq bir mühitdə təhsil almaqlarını təmin etməlidirlər. Kiberbullinqin qarşısını almaq üçün ilk addım həm evdə həm də məktəbdə baş verən bu halı gözdən keçirməkdir. Kiberbullinqi nə dərəcə əhatəli olduğunu bilmək üçün və valideyn iclasları,həm müəllimlərə həm də valideynlərə yönləndirilən anketlər verilməsi əhəmiyyətli ola bilər. Məktəb rəhbərləri kiberbullinqin baş vermə nisbətini,zamanını,yerini və formasını müəyyən etməlidir. Həmçinin valideynlərin və müəllimlərin bu mövzuda bilgili olması, bu problemi ciddiyə alması zəruridir. Əlavə olaraq, məktəb rəhbrləri və işçilərcməktəbdə bu tipli durumlarda alınacaq cəzalarıvə qaydaları qabaqcadan müəyyən etməlidir (KIMBERLY R. HALL,2010). Məktəb rəhbərliyi bu qaydaları tətbiq edərkən global aləmdən ilhamlanaraq öz qaydalarını yarada bilərlər ( Keith and Martin 2005;):

1. *Şagirdəri biliklə təmin etmək üçün məktəb kurrikulumuna kiberbullinq haqqında dərslər salınmalıdır.*
2. *İnternetdən necə istifadə etmək barədə göstərişlər verilməlidir.*
3. *Məktəbin müəyyən bir yerində antibullinq siyasətlərinə dair lövhələr yerləşdirilməlidir.*
4. *Məktəbdə internetin istifadəsi məhdudlaşdırılmalıdır və kiberbullinq üçün istifadə edildiyi təqdirdə qadağalar müəyyənləşməlidir.*

5. *Məktəb rəhbərliyi kiberbullinqin nə olduğunu açıqlamalı və qaydalara uymadıqda olacaq nəticələri qabaqcadan müəyyən etməlidir.*

6. *Valideynlər bu barədə maariflənməlidir. Onlara övladları ilə kiberbullinqlə bağlı danışıq aparmağı və bilgi verməyi və nəticələri məsələn,disiplinə göndərilmə,cinayət məsuliyyətinə cəlb edilmə və s baradə xəbərdar etməlidirlər.*
7. *Yerli polis orqanları ilə əlaqə saxlamaq, kiberpolislərləri məktəbə həm valideynlər həm də şagirdlərlə danışmaq üçün dəvət etmək lazımdır.*
8. *Bütün məktəb heyyətinə məlumat vermək məqsədli professional seminarlar təşkil edilməlidir.*
9. *Uşaqların məktəbdə yaşadıqları bu problemləri böyüklərə bildirmələri və məktəbdəki işçilərə report etmələri üçün rahat əlverişli mühit yaratmaq lazımdır.*
10. *Digər məktəblərlə kiberbullinqlə mübarizə proqramları barədə əməkdaşlıq etmək lazımdır.*
11. *Bəzi valideynlər öz övladları qədər texnologiya savadı olmadığından məktəb rəhbərliyi valideynlərin bilgilənmısi üçün təlim təşkil etməlidir. Əgər valideynlər bilgili olarsa onlar simptomları barədə məlumatlı olar və mənfi nəticələrindən qoruya bilərlər. (Andrew V. Beale və Kimberly R. Hall,2010)*

### 1.8 Bullinqin və kiberbullinqin Azərbaycandakı vəziyyəti

Azərbaycanda bullinqlə bağlı sosial media üzərində müzakirəyə 2019 cu ildə Bakı şəhərindəki məktəblərindən birində təhsil alan qız şagirdin zorakılığa uğraması səbəb olmuşdur. 162 nömrəli məktəbdə təhsil alan Elina Haciyeva bullinqin homofob, fiziki və mənəvi növlərinə məruz qalmışdır (BBC Bakı, 8 may 2019). Bütün bunlara dözməyən Elina intihar etmişdir və bildirilir ki, onun dostu yox imiş və tez-tez fiziki bullinqə (döyülmək) məruz qalmışdır. Elinanın üzləşdiyi bullinqlə bağlı məktəb rəhbərliyi və qızın valideynləri bilgiləndirilsə də onların heçbiri bu problemin qarşısını almaq üçün tədbir görməmişdir. Məktəb rəhbərliyi bütün olanlar üçün Elinanın valideynlərini günahkar hesab etmişdir. Bütün bu hadisələr bir daha göstərir ki, Azərbaycanda bullinqlə bağlı çox az təsəvvür vardır və bu səbəbdən dolayı bullinqlə mübarizə üçün hərhansı bir strategiyalar yoxdur (Mahmudova, 2019). Azərbaycanda hal-hazıra bulinqlə mübarizə məqsədli heç bir qanun hazırlanmamşdır və antibullinq programlarnın hazırlanması və təhsil müəssisələrində istifadə edilməsinə şərait yaradılması bullinqin törədilməsinin qarşısını ala bilər (Mahmudova, 2019). Elinanın ölümündən sonra sosial şəbəkələrdə bəzi həştəqlər hazırlanıb və onun kimi təcrübələri olanlar öz hekayələrini paylaşıblar.

### 1.9 Gender və yaşın bullinq və kiberbullinqlə əlaqəsi

Gender fərqləri,yaş,bullinq tipləri və ölkə fərqlilikləri daima diqqət mərkızində olan mövzü olmuşdur. Cook, Williams, Guerra, Kim, and Sadek (2010) 153 araşdırmanın meta analizini etmiş, bullinq edən və qurbanın genderlə əlaqəsi olduğunu bildirmişdilər. Qurban olma nisbətinə nəzər saldıqda kişilərdə bu halın olması daha ardıcıl və davamlı görünürdü. Gender fərqlilikləri bullinqin növünə görə dəyiçə bilər. Beləki, ənənəvi fiziki bullinq zamanı kişilər daha çox məruz qaldığı halda, münasibət əsaslı bullinq növündə onlar nisbətən azlıq təşkil edir (Smith, 2014). Kiberbullinqə gəldikdə isə vəziyyət nisbətən fərqlidir. Beləki, Kowalski, (2008, s. 54) gender amilini  kiberbulinq edənlərin və ya qurbanların nisbətlərinin əsas proqnozlaşdırıcısı kimi müəyyən etməsələrdə, belə nəticəyə gəldilər ki, cinsiyyətin rolunu bilmək üçün bu sahədə müəyyən araşdırmalar aparılmalıdır. Onlar hesab etdiki,kiberbullinqin baş verdiyi texnoloji vasitə də təsir göstərən amil hesab edilə bilər. Sun, Fan and Du (2016) tərəfindən kiberbullinqə aid 39 araşdırmada kişilərin daha çox iştirak etdiyini müəyyənləşdirdi, amma yaşı faktor kimi nəzərə almadılar. Tədqiqatçılar, Avropa ölkələri və Avstraliyada cins nisbəti ən az, Şimali Amerikada orta dərəcə və Asiya ölkələrində isə ən yüksək həddə olduğunu tapdılar. Gender amilinə təsir digər bir faktor yaş ola bilər. Barlett və Coyne (2014) 109 məqaləni araşdıraraq müəyyən etmişdir ki, kişilər digərlərinə qadınlardan daha çox kiberbullinqedir, amma bu vəziyyət , yaşa görə fərqlilik göstərir. Qadınlar erkən yeniyetməlik dövrünə qədr daha çox kiberbullinqlə məşğul olurlar. Kişilər isə yeniyetməlik dövründə qadınlardan daha çox kiberbullinq fəaliyyəti içində olurlar. Griezel et al.(2012) araprdığı araşdırmada bullinq reytinqinin cinsiyyətə görə fərqlilik göstərdiyi məlum oldu. Araşdırmada 803 şagird iştirak etmiş və onların yaşı 12 və 17 arasında dəyişirdi. Tədqiqat göstərdiki ənənəvi bullinqin əsas iştirakçısı və qurbanı  qızlarla müqayisədə daha çox oğlanlardır (Griezel et al., 2012, p. 451). Bu araşdırma bird aha sübut etdiki, oğlanlar həm bullinq edir həm də bullinqə uğrayırlar. Hoertel, Strat, Lavaud, and Limosin (2011) da apardıqları araşdırmada eyni nəticələrə gəlib çıxmışdırlar. Onların tədqiqatında oğlanların bullinqinlə etmə ehtimalı qızlara nisbətən gözlə görüləcək qədər çox olmuşdur (Hoertel et al., 2011). Həmçinin, Chapell et al. (2006) müəyyən etmişdir ki, oğlanlar həm ibtidai həm də ali məktəb də qızlarla münasibətdə daha çox bullinq etmişlər. Bu göstərir ki qızlar və oğlanlar hər ikisi bullinqlə məşğul olurlar amma fərqli stillərdə bunu bürüzə verirlər. Bjorkqvist et al.(1992) müxtəlif yaşlardan ibarət olan iki  uşaq qrupları müəyyən etmiş və hər qrupa təqribən eyni sayda oğlan və qız şagird yerləşdirmişdir. Hər iki qrupda da oğlanlar birbaşa bullinqə istinadən daha yüksək nəticə göstərdiyi halda, qızlar birbaşa olmayan bullinqə qarşı daha yüksək nəticə nümayiş etdirmişlər (Bjorkqvist et al., 1992). Smith (2008), buna bənzər başqa bir araşdırma etmişdir. Bu araşdırmada ibtidai  və orta məktəb şagirdləri iştirak etmişlər. Araşdırma zamanı birbaşa bullinqin əsas göstəricilərindən olan vurmaq, təpikləmək, oğurlamaq qızlardan daha çox oğlanlar arasında müşayiət olunmuşdur (Smith, 2008). Həmçinin qızlar birbaşa olmayan bullinq hallarından şikayət etmiş və bildirmişlər (Smith,2008).

Prinstein et al., (2001) oğlanların olduqca yüksək həddə daha açıq aqqressiv davranışlarları nümayiş etdirərkən,qızların bərabər miqyasda münasibət əsaslı aqressiya göstərdiyini qeydə almışdır. Kiberbullinqə gəldikdə isə, Li (2006) müəyyən etmişdir ki, oğlanlar həm ənənəvi həm də kiberbullinqdə zamanı qızlara nisbətən daha çox iştirak edir. Araşdırmada, oğlanların daha çox kiberbullinq edən və qızların kiberbullinq qurbanı olduğu müəyyən edilmişdir (Li, 2006). Lagerspetz et al. (1988) tədqiqatda aydınlaşdırmışdır ki qızlar daha çox münasibət əsaslı aqressiya göstərir və bunun səbəbi kimisosial strukturdur. Beləki, qızlar üçün dostları arasında yaxın və güclü münasibət şəbəkəsi mövcüddür, oğlanlar arasında isə bu əsasən geniş və qarışıq social şəbəkə mövcüddur ( Smith, 2008). Nəticə olaraq,bu dostluqları təhdid və manipulyasiya etmək qızlara daha çox təsir edir nəinki oğlanlara (Bjorkqvist et al., 1992; Lagerspetz etal., 1988). Qızlar şəxsiyyətlərarası münasibətlərə daha çox dəyər verir və bu da onları mənfi reaksiya verməyə meylləndirir. Qızlar dolayı olan aqressiyadan istifadə etməyə daha çox meyilli olmalarının səbəbi kimionların oğlanlara nisbətən verbal olaraq daha tez yetkinləşməsidir (Lagerspetz et al., 1988). Çünki qızlar daha erkən yaşda verbal bacarıqlara malik olurlar və bu səbəbdən dolayı verbal aqressiyadan istifadə edirlər (Bjorkqvist et al., 1992). Oğlanlara gəldikdə isə, social normalar baxımından aqressiv və dominant davranışlar nümayiş etdirirlər və bu səbəbdən bullinqin birbaşa formasından istifadə edirlər (Lagerspetz et al., 1988).

II

## İkinci fəsil

## 2. Metodologiya

Bu bölümdə araşdırılan tədqiqatın metodologiyası açıqlanmışdır. Beləki tədqiqat modeli, dataların toplaması, data toplama aləti,dataların analizi, etik mülahizə, tədqiqatın məhdudiyyətləri açıqlanmışdır.

### 2.1 Tədqiqat modeli

Bu tədqiqatda, keyfiyyət tədqiqat modelinin növlərindən olan fenomen araşdırma modeli tətbiq edilmişdir. Fenomen araşdırma modeli,nəzərdə tutulan fenomenlə bağlı təcrübəsi olan şəxslərin birbaşa və ya dolayı yolla əldə etdikləri təcrübələrinə əsaslanan məlumat toplama və araşdırılan fenomeni vahid şəkildə qiymətləndirməyi hədəf alan bir tədqiqat modelidir (Creswell, 2013). Yaşamları boyunca insanlar bir çox hadisə, problem və ya təcrübə ilə qarşılaşır və fenomen araşdırma modeli insanların bu vəziyyətə aid fərqindəlik dərəcəsini müəyyən etmək üçün istifadə edilən bir metoddur (Johnson və Christensen, 2014). Keyfiyyət araşdırmasının növü olaraq fenomen modelinin məqsədi ədlə edilən təcrübələrə qayıtmaqla fenomeni aşıqlamaq və qavramaqdır (Weng və Lin, 2013). Fenomen araşdırma növü əsasən insanların fərqində olduğu yalnız bu mövzü haqqında dərin və detallı bir anlayışa sahib olmadığı hadisələrə fokuslanır (Yıldırım və Şimşek, 2016).

### 2.2 İştirakçılar

Tədqiqatın iştirakçıları Təhsil Nazırliyinə tabe olan paytaxt məktəblərinin birində qartopu modelindən istifadə edilərək seçilən  X sayda şagird və X sayda müəllim olmuşdur. Qartopu modeli vasitəsilə tədqiqatın məqsədinə uyğun bir neçə şəxs müəyyən edilir. Daha sonra isə bu şəxslər vasitəsilə əlaqədar şəxslərlə əlaqə saxlanılır (Kuş, 2009, s. 46). Bunlardan istifadə edərək əldə ediləcək datalar vasitəsilə bir sonrakı dataya çataraq mühiti təmsil edə biləcəyi düşünülən tədqiqatda iştirak edəcək insan kütləsinin formalaşdırılması, beləliklə başlanğıcda tək bir vahiddən ibarət olan kütlə həcminin qartopu kimi böyüdülməsi hədəfə alınmışdır (Ural, 2011).

### 2.3 Data toplama aləti

Gərəkli olan informasiyanın tam və dərin şəkildə əldə edilməsi,əldə edilən cavablara dərhal geribildirim verməyə imkan yaratmaq, (Karasar, 2010) fərqli və dərhal dəyişə bilən şərtlərə adaptasiya olma xüsusiyyətinə sahib olması (Yıldırım və Şimşek, 2016) kimi xüsusiyyətlərindən dolayı tədqiqatda yarı-strukturlaşdırılmış müsahibə modeli istifadə edilmişdir. Yarı-

strukturlaşdırılmış müsahibə sualları hazırlayarkən ilk olaraq mövzüyla əlaqədar ədəbiyyat araşdırılmış,həm müəllimlərlə həm də şagirdlərlə görüşülərək mövzü haqqında təsvvürləri barəsində bilgi toplanılmışdır. Suallar hazırlanarkən ilk növbədə iki hissəyə bölünmüşdür. Bunlardan 10-u şagirdlərə, 7-si isə müəllimlərə aid edilmişdir. Suallar hazırlandıqdan sonra bir müəllimə, bir şagirdə və universitet müəlliminə oxunaraq onların bu sualların əhatəlik validliyi haqqında fikirləri alınmış və ümümi populyasiyanı əhatə edib-etmədiyi yoxlanılmışdır. Sualların daxili validliyi də incələnmişdir. Daxili validlik data ölçmə vasitəsinin ölçmək istədiyi məlumatı ölçüb-ölçmədiyi barədə məlumat verir. Müsahibə sualları; təhsilalanların və təhsilverənlərin bullinqlə bağlı təsəvvürləri, müəllimlərin bullinqlə və kiberbullinqlə, (Məktəbdə hansı bullinq/kiberbulilling halları ilə qarşılaşmısınız ?) bu barədə hansı cəza verildiyi (Bullinq və kiberbullinq edənləri necə cəzalandırırsız?) təhsilverənlərin bullinq və kiberbullinq edərkən hansı səbəbləri gətirdiyini (Bullinq və kiberbullinq edənlər bunu edərkən hansı səbəbləri gətirirlər?), daha əvvəl bu vəziyyətlə qarşılaşıb-qarşılaşmadığları, qəzların yoxsa oğlanların bullinqə məruz qalması haqqında data toplama imkanı əldə edilmişdir. Əlavə olaraq müsahibədən əvvəl təhsilalanların və təhsilverənlərin yaşı, cinsi, müəllimlərə əlavə olaraq iş təcrübəsi və dərs verdiyi fənn haqqında şəxsi məlumat forması təqdim edilmişdir.

**Şagirdlər üçün yarıstrukturlu müsahibə sualları:**

*1.Bullinq (zorakılıq,qısnama) nədir?*

*2.Heç bullinqə məruz qalmısınızmı? Qalmısınızsa bu necə olub?*

*3.Niyə insanlar bir birilərinə bullinq edirlər?*

*4.Ətrafınızdakılardan kimsə bullinqə məruz qalıbmı?*

*5.Kiberbullinq(internet üzərindən zorakılıq) nədir?*

*6.Sizcə hansı daha asan yolla baş verir:bullinq yoxsa kiberbullinq?*

*7.Sizcə qızlar yoxsa oğlanlar daha çox bullinq edir?*

*8.Sizcə verbal bullinq(sözlə təhdid etmə, qısnama və zorakılıq) nədir?*

*9.Sizcə qızlar yoxsa oğlanlar daha çox bullinqə məruz qalır və niyə?*

*10.Sizcə bullinqə məruz qalanlara necə kömək edə bilərik?*

**Müəllimlər yarıstrukturlu müsahibə sualları üçün:**

*1.Bullinq və kiberbullinqin qarşısını necə almaq olar?*

*2.Məktəbinizdə bullinq və kiberbullinq haqqında məlumat verilibmi?*

*3.Məktəbdə hansı bullinq halları ilə qarşılaşmısınız?*

*4.Məktəbdə hansı kiberbullinq halları ilə qarşılaşmısınız?*

*5.Məktəbdə bullinq və kiberbullinq hallarına qarşı psixoloji yardımlar göstərilirmi?*

*6.Bullinq və kiberbullinq edənləri necə cəzalandırırsız?*

*7.Bullinq və kiberbullinq edənlər bunu edərkən hansı səbəbləri gətirirlər?*

### 2.4 Dataların toplanması

Tədqiqat dataları paytaxtdakı n saylı məktəbdə təhsil alan şagirdlər və təhsil verən müəllimlər arasında yarı-strukturlaşdırılmış müsahibə modelindən istifadə edərək əldə edilmişdir. Araşdırmada açıq suallardan istifadə edilərək səs qeydi vasitəsilə məlumat toplanılmışdır. Ayrıca detaylı yazılı notlarla təhsilalan və təhsilverenlərin verdiyi cavablar qeydə alınmışdır. Müsahibə müəllimlər və şagirdlərlə üz-üzə görüşülərək həyata keçirilmişdir. Müsahibənin əvvəlində həm müəllimlərə, həm də şagirdlərə tədqiqatın məqsədi aşıqlanmış və özlərinin razılığı alınmışdır. Aparılan müsahibə təxminən X dəqiqə davam etmişdir. İştirakçıların verdiyi cavabların gizliliyini qoruya bilmək üçün müəllimlər "M-1, M-2"şagirdlər isə "Ş-1, Ş-2" kimi kodlanmışdır.

### 2.5 Müsahibə

Müsahibə məktəbdə həyata keçirilmiş və fevral ayına qədər bütün müsahibələr tamamlanmışdır. Müsahibələrdə iştirakçıların azad və doğru cavab verə bilmələri üçün lazım olan məxfiliyin qorunacağı qabaqcadan bildirilmişdir və onlar sorğunun başqa yerdə paylaşılmayacağı haqqında bilgiləndirilmişdir. Suallara rahat və dürüst cavabların verilməsinin tədqiqatın düzgün nəticəyə çatması üçün zəruri olduğu qeyd olunmuşdur. İştirakçılara eyni zamanda qeyd olunan səs yazılarının tədqiqatdan başqa yerdə istifadə edilməyəcəyi bildirilmişdir. Sorğuda iştirak könüllü şəkildə həyata keçirilmiş və iştirak etmək istəməyən şagird və ya müəllimlərin qərarlarına hörmətlə yanaşılmış, onlardan müsahibəyə daxil edilməmişlərdir. Görüşmələrdə iştirakçılara araşdırmanın məqsədi və mahiyyəti də izah edilmişdir. İştirakçılardan səs yazısı cihazından istifadə edilməsi üçün icazə alınmışdır.

### 2.6 Dataların analizi

Tədqiqatda keyfiyyət araşdırma növünün məzmun analiz modelindən istifadə edilərək analiz edilmişdir. Məzmun analizi, bir-birinə oxşayan dataları, müəyyən bir neçə əsas başlıqlar daxilində bir yerə gətirmək və edərək şərh etməkdir. (Yıldırım, 2016). Səs qeydləri vasitəsilə

aparılan müsahibə nəticələri araşdırmacı tərəfindən deşifrə edilmişdir. İştirakçılar arasında bənzərlik və fərqlilikləri göstərmək üçün yeni bir kodlamadan istifadə edilərək bütün paraqraflar və cümlələr gözdən keçirilmişdir. Oxşar və fərqli cəhətlər müəyyənləşdikdən sonra əlaqəli mövzülar birləşdirilərək uyğun temalar başlığında göstərilmişdir.

### 2.7 Etik mülahizə

Tədqiqatın reallaşması üçün Xəzər Universitetinin etik qurumundan icazə alınmış və data toplama prossesinə başlanılmışdır. Data toplanarkən müsahibədə iştirak edən təhsilverənlərə və təhsilalanlara bildirilmişdir ki, müsahibə tam anonimdir və əldə edilmiş nəticələr elmi məqsədlərdən əlavə formalarda istifadə edilməyəcəkdir. Müsahibə iştirakçıların adları, yaşadıqları yer kimi şəxsi məlumatları məxfi saxlanılaraq anonimlik qorunmuşdur. Əlavə olaraq, iştirakçılara tədqiqatda iştirakın könüllü olduğunu və istədikləri halda müsahibədə iştirakdan imtina edə biləcəkləri haqqında məlumat verilmişdir.

### 2.8 Tədqiqatın məhdudiyyətləri

Bu tədqiqat Azərbaycan Respublikası Təhsil Nazirliyinə bağlı olan paytaxtda fəaliyyət göstərən orta məktəb şagirdləri və həmin məktəblərdə fəaliyyət göstərən müəllimlərlə məhduddur. Əlavə olaraq bu araşdırma 2022-2023 təhsil ili ilə verilən suallar və uyğun olaraq əldə edilən cavablarla limitlidir.

**III**

**Üçüncü fəsil**

**3. Toplanmış məlumatların təhlili**

**3.1 Şagirdlərdən və müəllimlərdən toplanılmış məlumatlardan əldə olunan tapıntılar**

Bu fəsildə məktəbdə fəaliyyət göstərən 5 müəllim və təhsil alan 6 şagirdin təqdim olunan müsahibə suallarına istinadən verdikləri cavablar analiz olunmuşdur. İştirakçıların cavabları uyğun olaraq Temalar və alt başlıqlara, Kateqoriyalara və Kodlara bölünmüşdür. Burada 4 Tema, 3 Alt başlıq, 7 Kateqoriya və 22 kod göstərilmişdir.

**3.2 Temalar**

1. *Bullinq və kiberbullinq haqqında insanların fikirləri*
2. *Bullinq və kiberbullinq ilə bağlı təcrübələri*
3. *Bullinqin növləri ilə bağlı iştirakçıların məlumatlılığı*
4. *Bullinqlə mübarizə üsulları ilə bağlı iştirakçıların fikirləri*

| **Temalar və alt başlıqları** | |
|---|---|
| **Bullinq ilə bağlı təcrübələri** | Bullinq ilə rastlaşma tezliyi<br>Bullinq törətmə səbəbləri |
| **Bullinq və kiberbullinq haqqında insanların fikirləri** | Bullinqlə bağlı təsəvvürlər<br>Kiberbullinqlə bağlı təsəvvürlər |
| **Bullinqin növləri ilə bağlı iştirakçıların məlumatlılığı** | Verbal bulling ilə bağlı<br>Non-verbal bullinq ilə bağlı |
| **Bullinqlə mübarizə üsulları ilə bağlı iştirakçıların fikirləri** | Bullinq hallarına qarşı mübarizə tədbirləri |

*1.4 Cədvəl 4* Temalar və alt başlıqları

**3.3 Kateqoriya və kodlar**

| **Kateroqoriyalar** | **Kodlar** |
|---|---|
| **Bullinq hallarının tezliyi** | Az-az<br>Nadirən<br>Heç vaxt |

| | |
|---|---|
| **Bullinqlə bağlı təsəvvürlər** | Fiziki və psixoloji alçaldılma,zorakılıq<br>Psixoloji və fiziki travma<br>Zəif və güclü insan arasındakı təcavüz<br>Paxıllıq |
| **Kiberbullinqlə bağlı təsəvvürlər** | İnternet üzərindən tanımadıqlarımıza qarşı edilən zorakılıq<br>Kimisə pisləmək<br>Bir qrupdakı şagirdə qarşı mənfi müzakirə<br>Elektron poçt və ya smslə olan bullinq<br>Telefonla edilən zorakılıq |
| **Bullinq hallarına qarşı mübarizə tədbirləri** | Yaxşı<br>Normal |
| **Bullinq törətmə səbəbləri** | Uşaqlıqdakı psixoloji problemlərdən dolayı<br>Ailəvi probləmlər<br>Paxıllıq |
| **Ən çox hansı bullinq halları ilə qarşılaşılır** | Fiziki<br>Verbal |
| **Bullinqə hallarında cins faktoru** | Oğlanlar<br>Qızlar |
| **Bullinqlə məruz qalanlara qarşı necə yardım edə bilərik** | Ünsiyyət vasitəsilə<br>Rəhbərliyə bildirməklə<br>Dəstək olmaqla |

*1.5 Cədvəl 5* Kateqoriya və kodlar

Cədvələ nəzər saldıqda bullinq və kiberbullinqlə bağlı təsəvvürləri və mübarizə üsulları haqında düşüncələrinə aid olan uyğun kod və kateqoriyaları görə bilərik. Bu kateqoriyalar Bullinq halları ilə hansı tezlikdə rastlaşılır, Bullinqlə bağlı təsəvvürlər, Kiberbullinqlə bağlı təsəvvürlər, Bullinq hallarına qarşı mübarizə tədbirləri hansı dərəcədə aparılır, Bullinq törətmə səbəbləri, Ən çox hansı bullinq halları ilə qarşılaşılır, Bullinqə ən çox hansı cins məruz qalır, Bullinqlə məruz qalanlara qarşı necə yardım edə bilərik kimi səkkiz başlıq altında birləşdirilmişdir. İlk kateqoriyaya aid üç,ikinciyə aid dörd,üçüncüyə aid beş, dördüncüyə aid iki, beşinciyə aid üç, altıncıya aid iki, yeddinciyə aid iki, sonuncuya aid üç kod müəyyənləşdirilmişdir.

- **Bullinq ilə bağlı təcrübələri**

**Bullinq hallarının tezliyi**

Hər bir sahədə olduğu kimi, təhsil sahəsində bullinq halları ilə rastlaşmaq mümüköndür. İştirakçılarla həyata keçirilən müsahibə zamanı onların hansı tezlikdə bullinq halları ilə qarşılaşdıqları müəyyən edilmişdir. Verilən cavablar nəzərdən keçirilərkən şagirdlərin və müəllimlərin müəyyən aralıqlarda bullinq halları ilə rastlaşdığını görmək mümkün olmuşdur.

**Bir tələbə bu halla ümümiyyətlə qarşılaşmadığını qeyd etmişdir:**

*"Daha öncə heçbir bullinq halı ilə qarşılaşmamşam"*

*(Ş 1)*

**Bir tələbə isə yeni və sosial cəhətdən aktiv tələbə olduğu üçün bu halla qarşılaşdığını bildirmişdir:**

*" Mən bu məktəbə təzə keçmişəm və sosial fəaliyyətlərdə iştirak edirəm və bir çox şagirdə iştirak etməyi təklif edərkən bəziləri qəbul etsədə, bəziləri paxıllıq və nifrət edir və şəxsən mənə qarşı əsasassız sözlər danışır, yayırlar və bu artıq adi hal alıb "*

*(Ş 3)*

**Əksər tələbələr bullinqi şəxsən təcrübə etmədiklərini amma başqalarında bu halı müşahidə etdiklərini bildirmişdir:**

*"Özüm şəxsən qarşılaşmasamda bir dəfə belə bir hadisə ilə qarşılamışam,hansıkı bir nəfər şagird müəllimi tərəfindən çox sevildiyi üçün digər bir şagird hansıkı həmin müəllimi sevmir,bu şagirdə qarşı fiziki cəhərdən güc olduğu üçün fiziki bullinq etmişdir. "*

*(Ş 5)*

**Müəllimlər isə hazırda məktəbdə bu halın ümümiyyətlə olmadığını bildirmiş və sadəcə keçmişdə təcrübə etdiklərini bildirmişdir:**

*"10 il əvvəl bir qız tələbənin sinifdən çıxarılması haqqında çoxlu şikayətlər var idi və bu halın qarşısı danışıq aparmaqla həll olundu"*

*(M 2)*

*"Öz sinif rəhbəri olduğun sinifdə yeni gələn olan şagirdə qarşı bir neçə dəfə kasıb və yaxşı oxuyan olduğu üçün qarşı çıxılmışdı "*

*(M 3)*

*"Keçən il 7-i sinif şagirdi qız tələbə öz sinif yoldaşları tərəfindən kənarlaşdırılmışdı və həmin tələbə dərslər gəlmək istəmirdir,ağlayırdı daimi olaraq"*

*(M 4)*

**Bir müəllim isə ümumiyyətlə bullinqlə əlaqəsi olmayan bir hadisəni bullinq hesab etmişdir:**

*"Bir-iki dəfə olub ki bir şagirdin çantasından nəsə bir şey oğurlanmışdır və bu halı bullinq hesab etmək olar"*

(*M 5*)

İştirakçıların cavablarına nəzər saldıqda,onların məktəb mühitində müxtəlif zaman aralıqları ilə bullinqə məruz qaldığı və ya heç vaxt bu hal ilə qarşılaşmadıqları məlum olmuşdur.

**Bullinq törətmə səbəbləri**

Şagirdlər arasında keçirlən müsahibə zamanı onlara ünvanlanan suallardan biri də bullinqin hansı səbəblərdən törədildiyi olmuşdur. Verilən cavablara görə müxtəlif nəticələr ədə edilmişdir. Amma əsas səbəblər sırasında ailə, paxıllıq kimi faktorlar daha çox yer almışdır. Tədqiqatda iştirak edən müəllimlər bu məsələni aşağıdakı kimi ifadə edirlər;

**Əksər müsahibə iştirakçıları bullinqin əsas səbinin məhz ailə ilə əlaqələndirmişdir:**

*"Uşaqlıqdan olan psixoloji problemlərdən dolayı, özlərini sinifdə müəllimlərə və digərlərinə göstərmək məqsədi ilə edirlər hansıkı bu zaman onlar öz zəifliklikləri gizlətməyə çalışırlar"*

*(M 1)*

*"Ailədə görülən travmalardan dolayı yaranır hansıkı bir uşaq ata və ya anasından zorakılıq görürsə, o da istəyir ki bunu digərləridə yaşasın"*

*(M 4)*

**Bir müsahibə iştirakçısı bullinqin ortaya çıxma səbəbinin şagirdlərin mənfi daxili keyfiyyətlərindən qaynaqlandığını bildirmişdir:**

*"İnsanların bir-birinə olan paxıllıqlarından dolayı,məsələn daima yüksək qiymət alan şagird bullinqin hədəfində olur"*

(*M 5*)

Beləliklə, şagirdlərin bullinqi törətmə səbəbləri aydın olmuşdur və həmçinin, onların bunu şüursuz, yəni özlərindən dolayı olmayan səbəblərdən (məsələn, ailə və ya psixoloji travma) etmədikləri də aydındır.

- **Bullinqin növləri ilə bağlı iştirakçıların məlumatlılığı**

**Ən çox hansı bullinq halları ilə qarşılaşılır**

İştirakçılar ilə aparılan müsahibə zamanı ən çox hansı bullinq növüilə qarşılaşdıqları soruşulub. Bu zaman müxtəlif cavablar əldə edilib. Qız və oğlan tələbələr öz mövqeyləri baxımından fərqli istiqamətlərdə cavablar vermişdir. Cavablar arasında fiziki və verbal bullinq üstünlük təşkil etmişdir.

- ***Bullinq və Kiberbullinq haqqında insanların fikirləri***

**Bullinqlə bağlı təsəvvürlər**

Şagirdlərin bullinqlə bağlı təsəvvürlərini öyrənmək üçün iştirakçılara bu mövzuda müəyyən suallar ünvanlanmışdır. Şagirdlərin verdiyi cavablar müxtəlif istiqamətdə olmuşdur.

**Bəzi şagirdlər bullinqi doğru tərif etmiş və onun növlərindəndə xəbərdar olduqlarını öz cavablarında bildirmişdirlər:**

*" Bir neçə adamın bir nəfərə qarşı həm fiziki həmdə psixoloji cəhətdən nəsə etməsi, məsələn, uşaqlar arasıda alçaltması"*

*(Ş 1)*

*"Zorakılıq- psixoloji travma yaradan bir haldır"*

*(Ş 2)*

**Şagirdlərin biri bullinqi paxllıqla əlaqələdirmişdir:**

*"İnsanların bir-birinə olan paxıllığından dolayı alçatma halıdır"*

*(Ş 5)*

Verilən cavablara nəzər saldıqda iştirakçılar hardasa oxşar cavablar vermişlərdir və bullinq anlayışının doğru tərifinin nə olduğunu bildikləri məlum olmuşdur.

**Kiberbullinqlə bağlı təsəvvürlər**

Bu kateqoriyada əsasən iştirakçıların bullinqin digər bir forması olan kiberbullinq haqqında şagirdlərin tsəvvürləri haqqında məlumat əldə edilib.Əldə edilən məlumatlara baxdıqda şagirdlərin bu barədə kifayət qədər bilgili olduğu ortaya çıxmışdır və hər bir şagird müxtəlif cavablar vermişdir

**Əksər müsahibə iştirakçıları kiberbullinqə doğru tərif vermişlərdir:**

*“Məncə iki yerə bölünür:tanıdıımız və ya tanımadığımız insanlara qarşı edilən kiberbullinq hansıkı internet üzərindən edilir və rahatdır,hər an telefonu açıb etmək olur”*

*(M1)*

*“Sosial şəbəkələr vasitəsi ilə kimsə haqqında pis şeylər yazıb qruplarda paylaşmaq”*

*(M 2)*

**Bir şagird isə öz cavabında kiberbullinqin sadəcə şəkillərlə yayıldığını hesab etmiş və ən çox rast gəlinən bullinq növü hesab etmişdir:**

*“Ən çox yayılmış bullinq növüdür və elektron poçt və sms vasitəsilə azyaşlı uşaqların şəkillərlə təhdid edilməsi haldır”*

*(M 4)*

**Bəziləri isə ümümiyyətlə kiberbullinq haqqında doğru bilgiyə sahib deyildir:**

*“Məsələn bir saytda mən görmüşəm ki bir yazı var“sizə X miqdarda pul təklif edilir” deyə və belə şeylərə inanmıram”*

*(M 6)*

- ***Bullinqlə mübarizə üsulları ilə bağlı iştirakçıların fikirləri***

**Bullinq hallarına qarşı mübarizə tədbirləri hansı dərəcədə aparılır**

Bu kateqoriyada verilən cavablara nəzər saldıqda bəlli olur ki, iştirakçılar bullinq hallarına qarşı mübarizə tədbirlərinin hansı dərəcədə aparıldını əsasən iki cəhətdən dəyərləndimişdirlər.

**Əksər müsahibə işirakçıları bullinq və kiberbullinq hallarına qarşı inormasiya xarakterli məlumatlandırma tədbirlərinin keçirildiyini qeyd etmiş və bu şəkildə mübarizə etdiklərini bildirmişlərdir:**

*“Məktəbimizdə mütəmadi olaraq tədbirlər keçirilir və şagird parlamentləri vardır hansıkı siniflərdə bullinqə məruz qalan uşaqlarla maraqlanırlar ”*

*(M 1)*

*“Hər zaman qrup və ya fərdi olaraq psixoloqlarla birlikdə çalışaraq bu sahə üzərində çox işlər aparılır”*

*(M 2)*

**Bir müəllim öz cavabında bullinq halına qarşı ciddi tədbirlrin müəyyən bir hadisədən sonra aparıldığını qeyd etmişdir:**

*"2019-cu ildə baş verən Elina Haciyevanın ölümündən sonra çox ciddi tədbilər görülmüş və şagirdlərimiz arasında hətta kefsizlik belə müşahidə etdikdə onlarla maraqlanılır"*

*(M 3)*

*"Nizam-intizam şurası yaradılmışdır və onları daima izləyib,problemləri olan şagirdlərə vərəqlər təqdim edilrək onlardan nə problemləri olduğunu müəyyənləşdirməyə çalışırıq"*

*(M 4)*

Verilən cavabları analiz etdikdə məktəbdə bullinq hallarına qarşı müəyyən mənada tədbirlər görüldüyü məlum olmuşdur.

**Bullinqə ən çox hansı cins məruz qalır**

Bu kateqoriyada əsasən bullinq halı ilə hansı cinsin nümayəndəsinin daha çox qarşılaşdığı haqqında müsahibə suallarına verilən cavablar, onlara uyğun kodlar verilmişdir.

*" İkisində də baş verir, amma oğlanlarda daha çox olur çünki onlar kimisə pisləyə bilər və ya problem çıxara bilər"*

*(Ş 2)*

*" Oğlanlar öz fiziki gücləринə güvənirlər və zəif olanlara qarşı təcavüz edirlər"*

*(Ş 4)*

**Bir tələbə isə qızların daha az bullinqlə üzləşmə səbəbinin onların işlətdikəri hiylə ilə əlaqələndirmişdir:**

*"Bullinqə məruz qalanlar oğlanlardır daha çox, çünki qızlar bir yolla və ya hiylə ilə bu haldan çıxa bilirlər"*

*(Ş 5)*

**Bir neçə tələbə olanların sırf bu cinsdə doğulduqları üçün bullinqə məruz qaldığını və fiziki iddətin onlar üçün normal olduğunu hesab etmişdir:**

*"Oğlanlar daha çox bullinqə məruz qalırlar, çünki onlar buna meyillidirlər və oğlanlar fiziki bullinqə üstünlük verirlər"*

*(M 1)*

*“Oğlanlar fiziki zorakılığa öyrəşdikləri üçün onlar daha çox meyillidirlər və qızlarla müqayisədə onlar yol tapa bilmirlər və fiziki şiddəti seçirlər ”*

*(Ş 6)*

Verilən cavablara nəzər yetirdikdə isə qızlara nisbətdə daha çox oğlanların bullinqə məruz qaldığı ortaya çıxmışdır.

**Bullinqlə məruz qalanlara qarşı necə yardım edə bilərik**

Bullinq halları ilə qarşılaşarkən əsas problemlərdən biri də qurban olan şagirdlərə necə yardım etmək məsələsi olmuşdur. Müsahibə zamanı həm müəllimlər, həm də şagirdlər müxtəlif istiqamətlərdə cavablar vermişdir. Burada müxtəlif formada yardım edilə biləcəyini qeyd edən iştirakçılar həm də prosesə müdaxilə edənlərin ehtiyatlı olmasının vacibliyini qeyd etmişlər. Məsələn iki şagird belə qeyd etmişlər;

**Bir neçə çagird bullinqə uğrayanlara ediləbiləcək ən yaxşı köməyin verbal yollarla olduğunu hesab etmişdir:**

*“Söz vasitəsilə qorumaq daha məqsədə uyğundur, fiziki şəkildə isə gərəksizdir. Çünki bu zaman davanı başladan tərəfin siz olduğunuz iddia edilə bilər, hələki kamera da yoxdursa”*

*(Ş 1)*

*“Bu anda ən yaxşı yardım forması qurbanla danışmaq ola bilər, çünki bullinqə uğrayan şəxs özündə sıxılır, içinə qapanır”*

(*Ş 2*)

**Digər iştirakçılar isə administrativ mübarizənin daha doğru olduğunu qeyd etmişlər:**

*“İlk öncə rəhbərliyə və məktəbdəki şagirdlərə müraciət edilməlidir, əgər məktəb rəhbərliyi yardım etmirsə valideynlərə müraciət edilməlidir ”*

*(Ş 3)*

*“Onun arxasında durmaq lazımdır, çünki böyük ehtimalla o acizdir və qaçdıqca belə situasiyadan o psixoloji travma yaşayacaq və gələcəyinə də təsir edə bilər və ya böyüklərə bildirmək lazımdır ”*

*(Ş 4)*

Əldə edilən cavablara diqqət yetirdikdə isə ünsiyyət, dəstək olmaq və rəhbərliyə bildirmək kimi 3 əsas kod müəyyən edilmişdir.

Azərbaycan məktəblərində bullinq və kiberbullinq anlayışlarının kifayət qədər inkişaf etməməsi  məktəblərdə işçi heyəti və ya şagirdlər arasında müxtəlif bullinq və kiberbullinq hallarının yayılmasına səbəb olur. İştirakçıların verdikləri cavablar arasında fikir ayrılıqlarının olduğu müşahidə edilir. Bəzi müəllimlər və şagirdlər məktəbdə heç bir bullinq halları ilə qarşılaşmadıqlarını qeyd etsələr də, digərlər müəllimlər və bəzi şagirdlər məktəblərdə bullinq hallarının olduğunu və müəyyən zaman aralığında bu hallarla rastlaşdıqlarını vurğulamışlar. Tədqiqat zamanı əldə edilmiş məlumatlar əsasında müəyyən həm gözlənilən, həm də gözlənilməyən nəticələr müəyyən olunmuşdur. Belə ki, tədqiqat sualları üzrə nəticələri analiz etsək bildirmək olar ki, Azərbaycanda fəaliyyət göstərən məktəblərdə həm müəllimlər həm də şagirdlər arasında bullinq və kiberbullinq haqqında yetərsiz və ya doğru olmayan məlumat bazası vardır. Bullinq və kiberbullinq hallarının məktəb mühitində müxtəlif formalarda cərəyan etdiyi və bu anlayışlar haqqında müxtəlif təsəvvürlərə malik olunduğu əldə edilən nəticələr arasında yer almışdır. Əldə edilən nəticələrə əsasən bullinq halları halları əsasən qruplar halında baş verdiyini və bullinqin əsasən fiziki təcavüz olduğu ortaya çıxmışdır. Həmçinin bullinq və onun formalarına qarşı mübarizə tədbirləri çox aşağı səviyyədədir və görülən tədbirlər praktikidən daha çox nəzəri xarakter daşıyır. Müəllimlərin bir çoxu bullinq anlayışını daha çox kobud rəftar kimi qəbul etmiş və kiberbullinqi isə olduğundan daha kiçik həcmli bir hal kimi qiymətləndirmişlər. Mübarizə tədbirlərinə gəldikdə isə həm müəllimlər həm də şagirdlərin cavabı yetərsiz və təkrar olmuşdur. Bəzi tələbələr isə ümumiyyətlə bullinqin forması olan kiberbullinqi internet üzərindən olan saxtakarlıqla qarışdırmışdır. Bundan aydın olur ki, görülən tədbirlər yetərsizdir və effektiv nəticəyə malik deyil. Bu nəticələrin xüsusi qeyd edilməsi zəruridir.

Beləki :

- İştirakçıların əksəriyyəti həm qızlar həm də oğlanlar bullinqə qızlarla münasibətdə oğlanların daha çox məruz qaldığını və bullinqi törədənlərin də məhz oğlanlar olduğunu müəyyən edilmişdir. Buna əsas səbəb olaraq isə oğlanların məhz bioloji olaraq bu cinsiyyətdə doğulmasını və bu səbəbdən şiddəti əsas çıxış yolu kimi seçmələrini vurğulamışlardır. Qızlar isə əsasən bu tipli hallarla qarşılaşarkən hiylədən istifadə edərək çıxış yolunu tapdıqlarını qeyd etmişdirlər və bu səbəbdən onların bullinq halları ilə daha az və ya yox dərəcəsində qarşılaşdıqları məlum olmuşdur.

- Bullinq anlayışı ilə müqayisədə kiberbullinqin yeni anlayış olduğu qeyd edilmişdir, halbuki bu anlayış illərdir vardır və geniş yayılmışdır.Əksər müəllimlər bu anlayışdan xəbərsizdirlər və ya yalnış informasıyaya malikdirlər. Bəzi şagirdlərdə bu anlayışdan

xəbərsizdirlər. İştirakçılar kiberbullinqin bullinqdən daha təhlükəli olduğu qənaətinə gəlmişlərdir. Əsas səbəb isə bu anlayışın hələ tam yayılmaması olmuşdur.

- Əksər müəllimlər və tələbələr bullinq anlayışına yarı doğru tərif vermişlərdir. Onlar bullinq anlayışını daha çox kobud davranış, psixoloji travma və paxıllıq olduğunu hesab etmişlər. Verilən cavablara nəzər saldıqda məlum olur ki şagirdlər bullinqi iki yerə ayırır : fiziki və psixoloji hansıkı psixoloji olan forma deyildir. Onlar psixoloji dedikdə verbal olanı nəzərdə tutmuşlardır lakin doğru şəkildə ad qoya bilməmişlərdir. Buradan məlum olur ki onların bullinq haqqında məlumatları tam deyil.

- Verilən cavablara fikir verdikdə, müəllimlər digər məktəblərdə olduğu kimi daha çox formal yollara müraciət edərək daha çox bullinqlə mübarizə zamanı məlumatlandırma aparılmaqla və ya psixoloqlarla seminarlar keçirməklə həll olunacağını hesab etmişlərdir amma edilən hərhansı dəqiq bir seminar haqqında bilgi əldə edilməmişdir və ya əyani olan tədbir haqqında məlumat yoxdur hansıkı şagirdlər bullinq haqqında ətraflı və şüurlu olaraq öyrənsinlər.

- Geniş yayılan bullinq və kiberbullinq halları ilə mübarizəyə gəldikdə şagirdlərin mövqeyindən nəzər salarsaq onlar bu halı əsasən öz həmyaşıdları ilə hansılarki bullinq qurbanı olub, ünsiyyət apararaq , digər bir halda bu danışıqlar kifayət etməzsə məktəb rəhbərliyinə və ya məsul şəxslərə bildirməklə və son olaraq qurbana mənəvi dəstək olmaqla həll olunacağını hesab etmişlərdir.

- Müsahibə iştirakçıları bullinqin növü olan kiberbullinqi isə əsasən internet üzərindən tətbiq edilən və daha az yayılmış bullinq növü hesab etmişlər və onu emailə göndərilən yersiz və əxlaqsız e-poçtlar, vulqar mesajların və ya uyğunsuz şəkillərin yayılması vasitəsilə həyata keçirildiyini bildirmişlər. Müəllimər isə bullinqlə münasiətdə kiberbullinqin daha çətin həyata keçirildiyini bildirmişlərdir hansıkı bu cavablarda absurddur. Həmçinin müəllimlərin bu halların baş verdiyi mühit soruşulduqda sosial şəbəkələrdən yalnızca məktəb şagirdlərinin olduğu sinif Whatsapp qrupları ilə limitli olduğu ortaya çıxmışdır və onlar bu qruplara nəzarət edərək bu halın qarşısını nisbətən ala bildiklərini qeyd etmişlərdir. Şagirdlər isə ən azından kiberbullinqin həyata keçirlməsini daha asan olduğunu və səbəb olaraq texnologiya dövüründə yaşadığımızdan dolayı mobil cihazlarla əlaqələndirmişlərdir.

- Günümüzdə mühüm əhəmiyyət kəsb edən və aktual bir probleme çevrilən bullinq halı əsasən şagirdlər arasında və onların daha çox sosial olduqları mühit hesab edilən məktəbdə baş verir və bullinq hallarının ortaya çıxması müxtəlif səbəblərlə əlaqələndirilmişdir.

Müəllimlər bu halı əsasən ailə müxtəlifliyi ilə bağlantı yaratmışvə hər bir ailənin fərqli olduğundan dolayı qarışıqlıq yarandığını və bu səbəbdən bullinq olduğunu bildirmişlərdir. Eyni cavab bəzi şagirdlərin cavabındada görünür. Həmçinin yer alan cavablar içində bullinq törədənlərin özlərinin psixoloji problemləri olduğu və bu səbəbdən mənfi daxili keyfiyyətlərə sahib olduqlarını və bu səbəbdən bullinq hallarına qarışdıqları qeyd edilmişdir. Bullinqin əksərən məktəbdə baş vermə səbəbini isə bir neçə şagird müəllimlərlə və şagirdlərlər əlaqələndirmişdir. Beləki müəllimin sevimli şagirdi olmaq və digər şagirdlərdən daha yaxşı oxuyan şagird olmaq digərləri arasında birmənalı qarşılandığından bullinq törədilir.

- Bir çox müəllimlərin verdikləri cavablara nəzər saldıqda onların cavabları arasında müxtəliflilik olduğu aşkardır. Beləki bəzi müəllimlər ümumiyyətlə bullinq hallarının indiki dövrdə məktəbdə  baş vermədiyini, daha əvvəllər olduğunuda qeyd etdiyi halda, hansıkı cari vəziyyətlə tərs mütanasiblik təşkil edir, bəziləri bu halın normal olduğunu və hər bir məktəbdə olduğu kimi müsahibə aparılan məktəbdədə olduğunu bildirmişdirlər.

Bayar bullinqə məruz qalan istedadlı tələbələrin zorakılıq anlayışlarını tədqiq etmişdir (2018). Xüsusi istedadlı uşaqların bullinqə məruz qalma səbəbləri onların digərlərindən fərqli keyfiyyət və xüsusiyyətlərə sahib olduqları, hadisələrdən çox təsirlənmələri, həddən artıq emosionallıq göstərmələri, sosial münasibətlər qura bilməmələri olmuşdur. Bu tezis çərçivəsində aparılan araşdırmada isə müsahibə suallarına verilən cavablardan yola çıxaraq bəlli olmuşdur ki, Bayarın (2018) araşdırmasındakı kimi xüsusi bacarıqları olan, bacarıqlarını mədəni cəsarəti ilə göstərməkdən çəkinməyən və sosial cəhətdən fəal olan şagirdlər digər şagirdlər tərəfindən verbal və qeyri-verbal bullinqə məruz qalırlar. Bayar qeyd etmişdir ki, tədqiqatın iştirakçılar qurbanları səssiz, gücsüz, reaksiya verməyən, fərqli xüsusiyyətlərə sahib olaraq tanıdığı halda bullinq edənləri isə intiqam, əyləncə məqsədilə bir-birinə zərər verən, qısqanc, özünü üstün görən, psixoloji problem yaşamış olaraq adlandırmışdır. Qurbanların bir çox situasiyada xüsusi istedadları və ya xüsusi ehtiyacları səbəbilə anlaşıla bilməmələri və nəticədə özlərini yalnız hiss etdikləri ortaya çıxmışdır. Əlavə olaraq, qeyri-adi yanaşmaları və ya dominantlıq etməyə çalışan uşaqların yaratdıqları qayda-qanunlara uymamaları da onların antisosial olmalarına gətirib çıxarır. Müəllimlərin daimi olaraq uğurları səbəbiylə onları tərifləməsi digər şagirdlər tərəfindən xoş qarşılanmır və qısqanclığa səbəb olur. Yəni onların bir qismi sırf zəkaları və bacarıqlarına görə bullinqə uğrayırlar, digələri isə müxtəlif xüsusi ehtiyaclarına görə bullinqə məruz qalırlar. Eyniylə bu araşdırmada müəyyən edilmişdir ki qurban olan tələbələr sakit xarakterli və assosial şagirdlərdir. Bullinq edənlər isə bunu intiqam məqsədiylə etdiklərini və ya bullinqi zarafat kimi səciyyələndirmişlər.

Ma öz araşdırmasında qeyd edir ki, ailə daxilindəki valideyn müdaxilələri bullinqin qarşısının alınması üçün vacib əhəmiyyət kəsb edir amma yenədə pedaqoqların, məktəb müəllimlərinin valideynlərlə əlaqəsi daha vacib məsələdir (2001). Bu tədqiqatda da qeyd olunur ki, məktəb rəhbərliyi bu problemlərlə bağlı müdaxilə strategiyaları yaratmalı və onlar haqqında valideynləri məlumatlandırmalıdır. Bu prossese məktəb profilaktik proqram təqdim etməklə başlaya bilər. Bullinqlə bağlı ciddi şəkildə yetərli olan siyasət yaratmaq və onları hər il qiymətləndirmək lazımdır. Bu tezisdə də göstərildiyi kimi, Ma(2001) də bu müdaxilələrə əlavə olaraq hər il müəllimlərə, işçilərə və idarəçilərə hansı davranışların qəbuledilməz olduğu və niyə baş verdiyi, bu hal baş verərkən necə müdaxilə etmələri olduğları bildirilməli olduğunu qeyd edmişdir. Bu prosses sinxron şəkildə ailədə də həyata keçirilməlidir.

Harris və Hathorn gender fərqini izah edərək açıqlayır ki,oğlanlar həm daha çox bullinq edir həm də daha çox bullinqə məruz qalır (2006). Eyniylə bu araşdırmada da göstərlir ki, oğlanlar əsasən bullinq törədən və bullinqə məruz alanlar olmuşdur. Həmçinin gənc yaşlarda bullinq adətən fiziki olur, yaş artıqca bu verbal bulliqə çevrilir. Qızlar adətən qiybət, şayiə, ad-qoşmaq kimi verbal bullinqə müraciət etsələrdə oğlanlardan fərqli olaraq qurbana qarşı az da olsa simpatiya göstərirlər. Qızların adətən həmcinslərini bullinq etdikləri və buna onların xarici görününşü, bədən quruluşu, akademik nəticələrinə əsasən etdikləri bəlli olur. Haris və Harton həmçinin böyüdükcə bullinq halının nisbətən azaldığını da vurğulayırlar.

Ross bullinq edənin xarakteristikaları haqqında yazır və bildirir ki ev şəraitində olarakən uşaqların aqressiv və anormal davranışlarına müdaxilə edilməyəndə bu davranış qüvvətlənir (2002) . Bu araşdırma ilə müqayisədə Ross(2002) bildirmişdir ki, bullinq edənləri iki qrupa ayrılır: aqressiv bullinq edənlər və narahatlıq törədənlər. Aqressiv olanlar özlərini adi yeniyetmələrdən daha aktiv, güclü və impulsiv hesab edirlər. Bu tezisdə də bullinq edənlər təhdidedici davranışlar göstərir, şiddətə yönəlik münasibət bəsləyir və asanlıqla təhrik oluna bilirlər. Onlar öz dünyalarını paranoyak düşüncələrlə və hisslərlə yaşayır və özlərini əsla günahkar hesab etmirlər. Narahatlıq törədənlər isə aqresiv olanlardan özlərinə inam və hörmət baxımından fərqlənirlər. Aqressiv bullinq edənlər öz həmyaşıdları arasında populyardırlar amma digər narhatlıq törədənlər daha az özgüvənli olur və az dostları olur. Bu araşdırmada isə bullinq törədənlər 3 kateqoriyaya əsasən ayrılmışdır və bunlara cinsi, birbaşa, dolayı daxıl edilmişdir.

Nevra Atiş Akyol, Cansu Yildiz, Zerrin Akman müəllimlərin həmyaşıdların zorakılığına dair fikirləri və zorakılıqla mübarizə strategiyaları haqqında araşdırmışdır (2018). Araşdırmada məlum olduki, məktəbəqədərdə çalışan tərbiyəçi-müəllimlərin bullinq anlayışı bir kəsə təzyiq tətbiq etmək, məktəb müəllimlərinin isə bir nəfərə həm şiddət tətbiq etmək həmdə basqı altında saxlamaq olmuşdur. Eyniylə bu tezisdə də ortaq fikirləri və nəticələri görmək olar ki,müəllimlərin çoxu bullinqi qəsdən edilən hərəkətlər olaraq təsnif etmişdir. Müəllimlər bullinqi əsasən verbal və fiziki

olaraq ikiyə ayırmışdır. Əlavə olaraq, müəllimlərin fiziki və verbal bullinqi sosial xaricolmadan daha ciddi bir durum kimi anladıqları fiziki şiddəti daha çox təsbit etdikləri ortaya çıxmışdır. Müəllimlər fiziki şiddətin daha aydın və aşkar olduğu üçün bu qənaətə gəlmişdir. Məktəbəqədər müəllimlər qeyd edir ki,bir kəsə bullinq edən və ya zorba demək üçün başqalarına şiddət göstərməsi, orta məktəb müəlllimləri isə bu halın davamlı olduğu halda belə adlandırılmasını bildirmişdir. Bu araşdırmada da həmçinin məktəbəqədər müəllimlər bullinq etmə səbəbləri arasında ailə faktorunu, məktəb müəllimləri isə şəxsi və ailə faktorları önəmli hesab edir. Bir uşağın qurban olma səbəbəbini həm məktəbəqədər həm də orta məktəb müəllimləri şəxsi keyfiyyətlərdən qaynaqlandığını vurğulamışdır. Həmçinin bu araşdırmada da orta məktəblərdə rəhbərlik və müəllimlərin bullinqə qarşı birgə strategiya yaratma səylərinin olduğu ortaq çıxış yolu kimi göstərilmişdir.

Beale və Hall məktəbdə ki səlahiyyətli şəxslər üçün kiberbullinqlə mübarizə aparmaq üçün bəzi məsləhətlər vermişdir (2007). Bu məsləhətəri bu aaşdırmada da görmək olar. Beləki, məktəb rəhbərliyi valideynlərində də bu mövzuda yetəri qədər bilgiləndirilməli olduğunu vurğulamışdır. Onlar qeyd etmişdir ki, kiberbullinq çox vaxt evdə baş verir lakin valideynlər bunu anlamaqda çətinlik çəkirlər. Beale və Hall (2007 ) bildirmişdir ki, buna səbəb olaraq yeniyetmələr bəzi ifadələri abreviaturalar ilə əvəzlədikləri ortya çıxmışdır. Məsələn PIR qısaltması (parents in my room) yəni valideynim otaqdadır, POS qısaltması isə  (parent over my shoulder) yəni valideyn başının üstündə nəzarət edir mənasına gəlir.Valideynlər bu tipli qısaltmaları bilmədikləri halda nələr olduğunu anlaya bilməzlər. Eyniylə bu tezisdə də qeyd edilir ki,  valideynlərin uşaqlarla qısa da olsa kommunikasiya qurmasının vacibliyi qeyd edilir. Beale və Hall (2007)həmçinin valideynlərin uşaqların kompyuterlərinə bəzi uyğun olmayan vebsaytlara girməmələri üçün xüsusi tətbiqlərdən istifadə etmələrini tövsiyyə edir.

Charisios Asimopoulosa və digərləri yunan məktəblərində müəllimlərin bullinq anlayışını, bullinq haqqında bildiklərini araşdırmışdır. Araşdırma nəticəsində bir neçə mif ortaya çıxmışdır (2013). İlk olaraq müəllimlərin bullinqin bütün formalarını tam anlamadıqları və bullinqin yalnız fiziki zorbalıq və ya şiddət kimi başa düşüdükləri mifi ortaya çıxmışdır hansıkı bu araşdırmada da bu fikirlər vardır. Hətta bəzi müəllimlər bullinqin yalnız fiziki növü baş verdikdə tədbir görməyi məqsədəuyğun hesab etmişdilər. Onlar yalnız uşaqlar bu halları bildirdikdə bullinqin digər növləri haqqında məlumatlı olmuşdurlar. Digər bir mifdə isə bullinqin ümumi bir problem olmadığı yalnızca bullinq edən və qurban arasında baş verən bir insident olduğunu vurğulayırlar. Bu araşdırmada da müəllimlərlə aparılan müsahibə zamanı əldə edilən cavablara nəzər saldıqda isə bullinqin böyüyərkən yeniyetmələr arasında normal olduğu fikri irəli sürülmüşdür. Digər mifdə isə qurbanın bilərəkdən qarşı tərəfi yəni bullinq edəni təhrik etdiyi üçün bu halların baş verdiyi fikri yaranmışdır.

Boulton 25 bullinq edən, 25 qurban və səkkizdən on yaşa qədər olan 25 şagirdlə müsahibə apardılar (2006) . Bu uşaqlar öz həmyaşıdlarının səsverməsinə əsasən təsnif edildi. Bu araşdırmada da həm müəllimlərə həm də şagirdlərə bullinq edənin niyə zorakılıq etdiyi, bullinq edənlərin və qurbanların necə hiss etdiyi və qurbanların niyə zorakılığa məruz qaldığı ilə əlaqəli bir neçə suallar verildi. "Bullinq edənlərin başqa uşaqlardan üstün edən nədir ? " sualına, zorbalar qurbanın onları təhrik etdiyi səbəbiylə olduğunu (44%) hansıkı bu səbəb bu araşdırmada da göstərilmişdir, digər tərəfdən isə qurbanların onlardan daha kiçik və ya zəif olduqları üçün (36%) və eyniylə bu tezisdə də bildirmişdir ki nə bullinq edənlərə nədə ki qurban olmayanlar isə bunun heç bir səbəbi kimiolmadığını söylədi (16%). Boulton(2006) bildirir ki iştirakçıların 12%-i isə bunun təxribat olduğunu irəli sürmüşdür.

Bu araşdırmaya oxşar olaraq Davide Marengo və əməkdaşları etdikləri araşdırmada İtaliyadakı ibtidai məktəblərdəki uşaqların bullinq haqqında fikirlərini həm müsahibə həm də şəkil əsasında müəyyən etməyə çalışmışdırlar (2022). Bu araşdırma isə yalnızca müsahibə sualları əsasında sorğu aparılmışdır. Marengo(2002) qeyd edir ki , uşaqlar arasında bullinq ya fiziki ya da verbal olaraq report edilir amma sosial təcrid isə demək olar ki çəkilən şəkillərdə özünü göstərmir. Bu araşdırmadan fərqli olaraq, Marengonun (2002) araşdırmasındakı data onu da göstərdiki uşaqların şəkillərində qurban və ya bullinq edən olub olmadıqları bəlli olur. Qurban olan uşaqlarda emosiyalar əsasən təsviretmədə mərkəzi xarakter daşıyır. Uşaqlar əsasən qurban olan uşağın vəziyyətini neqativ emosiyalarla ifadə etmişdir. Morengonun müsahibə suallarından alınan cavablardan məlu olur ki, uşaqların hissləri daha aydın görünür və kədər hiss olunur amma bu araşdırmada uşaqlar o qədər də çox açıq emosiyalarını göstərməmişdirlər. Şəkillərdə uşaqlar qurbanı və bullinq edəni mərkəzdə çəkərərək onu müəllimləri və digər uşaqlarla əhatələmişdir. Rəsmlərlə müqayisdə müsahibədə uşaqlar müəllimləri əsas müdaxilə edən, uşaqları isə passiv olaraq bildirmişdilər ki bu nəticələri bu araşdrımadakı cavablardan da aydın görmək olar. Marengo(2022) qeyd olunmuşdur ki, şəkillərlə müsahibə birləşdirilərək ortaya tam məlumat çıxmışdır.

Bu araşdırmadan fərqli olaraq Erkan Yaman və Necla Kocabaşoğlu Şagirdlərin müəllimlərə etdiyi bullinq haqqında araşdırma etmişdir (2011). Araşdırmaya görə sinifə sadəcə bir neçə müəllimin şagird zorbalığına qaldığı bəlli olmuşdur. Ancaq bu problem o qədər də mühüm deyildir. Müəllimlər hərşeyə rəğmən çox xoşbəxt olduqlarını yalnızca şagirdlərinin müəllimimlərinin gözləntisini qarşılamadığı səbəbiylə narahat olduqları ortaya çıxmışdır. Müəllimlərə bullinq edənlər əsasən qrup mərkəzli bullinq edirlər. Ən çox bullinq halı 10.sinif şagirdləri arasında baş verir və sinif artdıqca bu azalır. Bəzən bu tələbələr öz aralarında qruplar yaradaraq müəllimlərə qarşı digərlərini pis mənadə doldurur və onlarıda təhrik edirlər ki bullinq etsinlər. Eyniylə bu araşdırmada da bildirilir ki, müəllimlər şagirdlər tərəfindən duyğusal və ya

psixoloji, qarışıq (verbal, irqi, cinsi, kiber) bullinq növüylə üzləşirlər. Bu araşdırmada da göstərilir ki, əsasən müəllimlə qarşı neqativ davranışlar, müəllim söz vermədən danışmaq, hörmətsizlik, müəllimi dinləməmək, müəllimə yalan demək, müəllimin yaxşı niyyətindən sui-istifadə etmək ortaya çıxmışdır. Bu tezisdə də bildirilir ki, müəllimlər bu problemi ya disiplinə verərək ya da dialoq vasitəsilə həll etdiklərini bildirmişlər. Əsasən sosial medianın onların hərəkətlərinə təsir etdiyi ortaya çıxmışdır. Çox sərt və ya yetərsiz olan müəllimlər tez-tez bullinqə məruz qalırlar. Burada gender problemi də ortaya çıxmışdır. Xarakter olaraq isə daha incə, mülayim xarakterli müəllimlər hədəf olaraq seçilir. Şagirdlər həm də dərs mühitini pozaraq digər tələbələri və müəllimi də çətin vəziyyətdə saxlayırlar.

